**BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA SİLAHLI QÜVVƏLƏR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINI TƏBRİK EDİB**

Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib. AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir: "Əziz həmvətənlər! Əziz hərbi qulluqçular və veteranlar! Bu gün biz Azərbaycan Silahlı Qüvvələri Gününü qeyd edirik. Bu, hərbi rəşadət, şərəf və igidlik bayramıdır...



Bax səh. 3

**MİLLİ MƏCLİSİN NÖVBƏDƏNKƏNAR SESSİYASININ NÖVBƏTİ PLENAR İCLASI KEÇİRİLİB**

İyunun 27-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib. Parlamentin Sədri Oqtay Əsədov iclası açaraq gündəliyi təqdim edib. Bildirilib ki, gündəliyə 49 məsələ daxildir. Əvvəlcə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, məsələyə komitənin...



Bax səh. 3



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 28 iyun 2019-cu il, cümə / № 114 (5489). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseydə yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub






## Prezidentin iş günü

Prezident İlham Əliyev 2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilməsi ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin həyata keçirəcəyi bir sıra tədbirlərin maddi təminatı haqqında Sərəncam imzalayıb.

◆ ◆ ◆

Prezident İlham Əliyev Xocəsən-Lökbatan avtomobil yolunun 0-11-ci kilometrlik hissəsinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

◆ ◆ ◆

Prezident İlham Əliyev aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında Fərman imzalayıb.

◆ ◆ ◆

Prezident İlham Əliyev Əli Nağı oğlu Nağıyevə general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

◆ ◆ ◆

Prezident İlham Əliyev Vilayət Süleyman oğlu Eyvazova general-polkovnik ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb.

## Azərbaycan dünyaya yeni multikulturalizm modeli təqdim edir

Əsrlərdir ki, tolerantlıq nümunəsi sayılan Azərbaycan həm də müasir dünyada multikulturalizmin ünvanlarından biri kimi şöhrət tapıb və sivilizasiyalararası dialoqun inkişafına mühüm töhfələr verir. Məlum olduğu kimi hazırda dünyanın bir sıra ölkələrində fərqli mədəniyyətlərin toqquşmasının nəticəsində xoşagəlməz tendensiyalar meydana çıxır. İslamofobiya, irqçilik, ksenofobiya kimi təhlükəli meyillərin bəzən süni şəkildə alovlandırılması bu cür toqquşmaları daha da dərinləşdirir, nəticədə insan haqlarının pozulması halları artır, sabitlik pozulur. Azərbaycanda isə əsrlərdən gələn multikulturalizm, tolerantlıq və qarşılıqlı hörmət mühitində sabitlik, təhlükəsizlik, insan hüquqlarının müdafiəsi təmin edilib. Bu da Azərbaycanın demokratik, tərəqqipərvər və humanist ənənələri, multikultural dəyərləri yaşadan ölkə kimi tanınmasını şərtləndirib. Qeyd olunmalıdır ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasət Prezident İlham Əliyev tərəfindən də ardıcıllıqla və uğurla davam etdirilir. Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq...

Bax səh. 7



**YAP-IN İCRA KATİBLİYİNDƏ PARTİYANIN YASAMAL VƏ NƏSİMİ RAYON TƏŞKİLATLARININ ƏRAZİ İLK PARTİYA TƏŞKİLATLARI SƏDRLƏRİNİN İŞTİRAKI İLƏ MÜŞAVİRƏ KEÇİRİLİB**

İyunun 27-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində partiyanın Yasamal və Nəsimi rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin...

Bax səh. 3

**ŞƏKİDƏ KEÇİRİLƏN KONFRANSDA TERRORÇULUQLA MÜBARİZƏ SAHƏSİNDƏ GÖRÜLƏN İŞLƏRDƏN ƏTRAFLI BƏHS OLUNUB**

Terrorizm müasir dövrdə ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif formalarda təzahür edən, daha hədələyici miqyas alan ciddi təhdidlərdən biridir. Terror aktları insan tələfatı ilə nəticələnir, böyük insan kütlələrinə güclü psixoloji təzyiq göstərir, maddi və mənəvi dəyərləri məhv edir, dövlətlər arasında nifaq salır, müharibələrə, sosial və milli qruplar arasında inamsızlığın və nifrətin yaranmasına səbəb olur. Terrorçuluqla mübarizədə xüsusi xidmət və hüquq-mühafizə orqanları ilə yanaşı, ictimaiyyətin də yaxından iştirakı və rolu danılmazdır. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər Dövlət Təhlükəsizliyi Xidmətinin Beynəlxalq Antiterror Təlim Mərkəzinin (DTX BATM) təşkilatçılığı ilə iyunun 27-də Şəki şəhərində keçirilən "Xarici xüsusi xidmət orqanlarının ölkəmizdə həyata keçirdiyi pozuculuq fəaliyyəti" və "Terrorçuluqla mübarizədə gələcək nəslin maarifləndirilməsi" mövzularında...

Bax səh. 6



**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA "AZƏRBAYCANIN DAVAMLI İNKLÜZİV İNKİŞAFINDA KÖNÜLLÜLƏR FƏALİYYƏTİNİN ROLU" İSTİQAMƏTİ ÜZRƏ İXTİSASARTIRMA KURSUNA BAŞLANILIB**

İyunun 27-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında...

Bax səh. 4

**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclası keçirilib**

İyunun 27-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə iştirakçıları gündəliklə tanış edib...



Bax səh. 4

**Bakıda UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Abidə Menecerləri Forumu öz işinə başlayıb**

İyunun 27-də Bakı Konqres Mərkəzində UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində...



Bax səh. 5

**Bakıda yerdəyişmə üzrə tərəfdaşlığa dair beynəlxalq konfrans keçirilib**

"Azərbaycanla yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsinə dəstək" (MOBILAZE) layihəsinin yekunlaşması ilə əlaqədar iyunun 27-də Bakıda Azərbaycan ilə Avropa İttifaqı...




Bax səh. 4

**Konstitusiya Məhkəməsində keçirilən Könüllü Proqramında iştirak edən gənclərə sertifikatlar təqdim edilib**

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təməlini qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev...



Bax səh. 5

**AZƏRTAC-ın da təsisçisi olduğu "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı platforması istifadəyə verilib**

İyunun 27-də Çinin paytaxtı Pekində "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı platformasının istifadəyə verilməsi...




Bax səh. 5

# Prezident İlham Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseydə yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub





İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri Zakir Həsənov burada aparılmış yenidənqurma və əsaslı təmir işləri barədə məlumat verib.

Bildirilib ki, Cəmşid Naxçıvanski adına Hərbi Lisey 11 hektar ərazini əhatə edir. Burada tikinti, təmir və yenidənqurma işləri 2018-ci ilin fevral ayında başlanıb. Hərbi Liseyin ərazisində qərargah binası, kursant yataqxanası, tibb məntəqəsi, hamam-camaşırxana-qazanxana kompleksi inşa edilib, eləcə də mövcud binalar əsaslı təmir olunub və qurğular yerləşdirilib. Hərbi Liseydə sahəsi 1800 kvadratmetr olan üçmərtəbəli yeni qərargah binası inşa olunub. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, abadlıq tədbirləri görülüb. Binanın qarşısında Cəmşid Naxçıvanskinin büstü və ətrafında xatirə kompleksi yerləşir.





Liseyin ərazisində tibb məntəqəsi də inşa olunub. İkimərtəbəli 32 çarpayılıq tibb məntəqəsində funksional diaqnostika, həkim, oftalmoloji kabinetlər, laboratoriya, sarğı otağı, təxirəsalınmaz yardımın göstərilməsi üçün otaq, xidməti otaqlar, palatalar və müasir yeməkxana yaradılıb. Buradakı şərait şəxsi heyətə yüksək səviyyədə ixtisaslı tibbi yardımın göstərilməsinə imkan verir.

Hərbi Liseydə yaradılan qapalı idman kompleksində kursantların idmanla məşğul olmaları üçün hərtərəfli imkanlar var. Kompleksdə trenajor, gimnastika zalları, mini futbol, basketbol və voleybol oyunlarının keçirilməsi üçün meydança yaradılıb.

Sonra dövlətimizin başçısı Hərbi Liseydəki Heydər Əliyev Muzeyi ilə tanış olub. Hələ sovet dövründə gələcəkdə müstəqil Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsi zərurətini uzaqgörənliklə diqqətə alan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradılıb. Ölkəmizə rəhbərliyinin bütün dövrlərində bu hərbi təhsil ocağına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Ümummilli Lider Heydər Əliyevin 1998-ci və 2002-ci illərdə imzaladığı sərəncamlarla Hərbi Liseyin yaradılmasının 25 və 30 illik yubileyləri dövlət səviyyəsində geniş qeyd edilib. Muzeydə Ulu Öndər Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin Azərbaycanda nizami ordu quruculuğu, Silahlı Qüvvələrimizin hərbi qüdrətinin artırılması, o cümlədən Hərbi Liseyin inkişafına göstərdikləri yüksək diqqət və qayğını əks etdirən fotolar, sənədlər və nəşrlər nümayiş olunur.

Dövlətimizin başçısı Hərbi Liseydə təhsil alan kursantların yaşayış və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunan dördmərtəbəli yataqxana korpusu ilə də tanış olub. Yeni tikilən binada konfrans zalı, ideoloji, məişət və digər otaqlar zəruri avadanlıqla təchiz edilib. Yataqxanada kursantların qalması, istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait var. Liseydə üçmərtəbəli yataqxana korpusu da əsaslı təmir olunub.

Sonra Prezident İlham Əliyev Hərbi Liseyin klubunda yaradılan şəraitlə tanış olub. Liseydə aparılan yenidənqurma və təmir işləri çərçivəsində klubun binası da əsaslı təmir edilib. Klubun 350 yerlik binasında mədəni-maarif tədbirlərinin keçirilməsi üçün bütün şərait var. Burada, eyni zamanda, ölkəmizin və liseyin həyatında baş verən əlamətdar hadisələri qeyd etmək mümkündür.





Daha sonra dövlətimizin başçısı kursant yeməkxanasında yaradılan şəraitlə maraqlanıb. İkimərtəbəli yeməkxana binası da əsaslı təmir olunub. Bütün avadanlıqla təchiz edilmiş binada eyni vaxtda 600 kursant nahar edə bilər. Burada yemək zalı, mətbəx və təsərrüfat otaqları, ərzaq və soyuducu anbarlar var. Dövlətimizin başçısının qayğısı sayəsində bu gün Azərbaycan Ordusunda xidmət edən hərbi qulluqçuların qidalanması məsələsinə də xüsusi diqqət yetirilir.

Hərbi Liseyin tədris korpusunda yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verilib ki, dördmərtəbəli bina da əsaslı təmir edilib. Burada tədris prosesi Azərbaycan dili, ictimaiyyət, riyaziyyat, informatika, xarici dil və təbiət fənn bölmələri üzrə həyata keçirilir. Korpusda fənn kabinetlərində, kimya və fizika laboratoriyalarında kursantların bilik və hazırlıqlarının artırılması üçün hər cür şərait yaradılıb.

Yenidənqurma işləri zamanı liseyin təntənəli mərasimlər, sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sahəsi üç min kvadratmetr olan sıra meydanı da salınıb və tribuna inşa edilib.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına, istərsə də müasir silah-sursat arsenalına görə dünyada lider yerlərdən birini tutur. Bu, göstərir ki, Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla uğurla reallaşdırılır. Dövlətimizin başçısının rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün ordumuz dünyanın ən güclü 50 ordusu sırasındadır.





Prezident, Ali Baş Komandan İlham Əliyev 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantlarını və müəllimlərini təbrik edərək deyib: **“Silahlı Qüvvələr Günü münasibətilə Sizi təbrik edir, hər birinizə uğurlar arzulayıram. Arzu edirəm ki, siz gözəl hərbçi kimi özünüzü göstərəsiniz.**

**Bilirsiniz ki, bu məktəbin təməlini Ulu Öndər Heydər Əliyev qoymuşdur. Onun təşəbbüsü ilə bu məktəb 1971-ci ildə yaradılmışdır. Ulu Öndər həmişə bu məktəbin fəaliyyətinə böyük diqqət göstərmişdir. Hələ o vaxt bilirdi ki, bizə milli hərbçi kadrlar lazım olacaq və belə də oldu.**

**Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır. Bu gün ordumuz ən yüksək səviyyədədir.**

**Ulu Öndərin misilsiz xidmətləri Azərbaycan xalqının qəlbində daim yaşayır. Biz onun işini davam etdiririk. Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir.**

**Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək.**

**Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək.**

**Azərbaycan bu gün bütün sahələrdə uğurla inkişaf edir. Əminəm ki, bu inkişaf dayanıqlı olacaq.**

**Sizə - burada oxuyan kursantlara və çalışan müəllimlərə yeni uğurlar, cansağlığı arzulayıram. Vətənin qorunması işində siz həmişə fəal olmalısınız və öz gücünüzü göstərməlisiniz.**

**Sizi bir daha təbrik edirəm.**

**Bütün Azərbaycan xalqını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edir və sizə yeni uğurlar arzulayıram. Sağ olun”.**

* * *

Sonda xatirə şəkli çəkdirilib.



# Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva Silahlı Qüvvələr Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda deyilir: **"Əziz həmvətənlər!**

**Əziz hərbi qulluqçular və veteranlar!**

**Bu gün biz Azərbaycan Silahlı Qüvvələri Gününü qeyd edirik. Bu, hərbi rəşadət, şərəf və igidlik bayramıdır. Bu gün biz həyatını riskə məruz qoyaraq Vətənimizi müdafiə edənlərin qəhrəmanlığına ehtiramımızı bildiririk.**

**Silahlı Qüvvələr Günü əsl ümumxalq bayramıdır. Ordu bizim dövlətçiliyimizin, təhlükəsizliyin və sabitliyin dayağıdır. Dövlətin hərbi qüdrəti bir çox amillərlə şərtlənir. Lakin bizim ordumuzun əsas gücü Azərbaycanın əsgər və zabitlərinin döyüş ruhu və Vətənə hədsiz sevgisidir.**

**Əziz hərbçilərimiz! Biz sizin mərdliyiniz, şücaətiniz və ən yüksək peşəkarlığınızla fəxr edirik. Bu əlamətdar bayram münasibətilə sizi ürəkdən təbrik edirəm".**

# YAP-ın İcra Katibliyində partiyanın Yasamal və Nəsimi rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib



İyunun 27-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində partiyanın Yasamal və Nəsimi rayon təşkilatlarının ərazi ilk partiya təşkilatları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov Azərbaycanın dinamik inkişafının uğurla davam etdiyini bildirib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının dəfələrlə artması, əhalinin rifah halının xeyli yaxşılaşması bu inkişafın əsas göstəriciləridir.

Azərbaycanın inkişafını, daha da güclənməsini gözü götürməyən qüvvələr olduğunu da deyən Əli Əhmədov həmin dairələrin ölkəmizə qarşı qarayaxma kampaniyaları apardığını bildirib. O qeyd edib ki, hər bir vətəndaş, o cümlədən partiyamızın üzvləri bu kampaniyalara qarşı tutarlı cavablar verməli, həmin dairələrin əsl niyyətlərini ifşa etməlidirlər.

YAP Sədrinin müavini - İcra katibi Əli Əhmədov, həmçinin partiya həyatı ilə bağlı müşavirə iştirakçılarına müvafiq tövsiyə və tapşırıqlarını verib.









# Elmar Məmmədyarov Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin baş direktoru ilə görüşüb

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin baş direktoru Mixael Şpindeleqqer ilə görüşüb.



Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə "Azərbaycanla Avropa İttifaqı arasında Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək" (MOBILAZE) layihəsi çərçivəsində Bakıda keçirilən "Yerdəyişmə üzrə Tərəfdaşlıq" mövzusunda illik beynəlxalq konfrans zamanı faydalı müzakirələrin aparıldığı qeyd edilib. Miqrasiya məsələsinin hazırda beynəlxalq gündəlikdə, o cümlədən Aİ üçün önəm kəsb edən ən vacib məsələlərdən biri olduğu ifadə edilib.

Tərəflər Azərbaycanın Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz ilə miqrasiya sahəsində sıx əməkdaşlıq etdiyini bildirərək, MOBILAZE layihəsinin Aİ-Azərbaycan arasında əməkdaşlığın mühüm ölçüsü olan yerdəyişmə proseslərini və insanlararası əlaqələri dəstəkləməkdə rolunu yüksək qiymətləndiriblər. Eyni zamanda, tərəflər Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Viza Rejiminin Sadələşdirilməsi və Readmissiya sazişlərinin bu ölçüyə xidmət etdiyini söyləyərək sözügedən sazişlərin icrasında Azərbaycanın sadiqliyini xüsusilə vurğulayıblar.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan nazir Elmar Məmmədyarov münaqişə nəticəsində ölkəmizin genişmiqyaslı daxili miqrasiya problemi ilə üzləşdiyini bildirib. Nazir Azərbaycanın müvafiq qurumlarının səyi nəticəsində qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı işlər görüldüyünü xüsusilə qeyd edib. Elmar Məmmədyarov, eyni zamanda, həmsöhbətini münaqişənin həlli üzrə aparılan danışıqlar prosesinin son durumu ilə bağlı məlumatlandırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib

İyunun 27-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib.



Parlamentin Sədri Oqtay Əsədov iclası açaraq gündəliyi təqdim edib. Bildirilib ki, gündəliyə 49 məsələ daxildir.

Əvvəlcə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, məsələyə komitənin iclasında və Milli Məclisin plenar sessiyasında əvvəlki iki oxunuşda baxıldıqdan sonra əlavə heç bir təklif daxil olmayıb. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib. Ziyad Səmədzadə bildirib ki, Prezident İlham Əliyev tərəfindən Milli Məclisə təqdim olunan 2019-cu il üçün dövlət büdcəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcəsi və İşsizlikdən Sığorta Fondunun büdcəsi haqqında qanunlara dəyişikliklər edilməsi barədə qanun layihələrində dövlət büdcəsinin bəzi xərclərinin optimallaşdırılması, DSMF-nin və İşsizlikdən Sığorta Fondunun gəlir və xərclərinin, həmçinin icmal büdcəsi xərclərinin yuxarı həddinin artırılması nəzərdə tutulur. Əlavə xərclərin maliyyə təminatının mənbəyi kimi vergi, gömrük və sosial sığorta haqlarının formalaşdırılması və yığılmasında inzibatçılığın gücləndirilməsi və şəffaflığın artırılması amillərini qeyd edən komitə sədri deyib ki, sentyabr ayında nəzərdə tutulan əlavə artımlar hesabına dövlət sosial sığorta haqları üzrə 350 milyon manat vəsaitin daxil olacağı proqnozlaşdırılır.

Qeyd olunub ki, indiki halda DSMF-yə əlavə gəlir daxil olduğu üçün mövcud maliyyə resurslarından daha səmərəli istifadəni təmin etmək məqsədilə dövlət büdcəsindən Fonda ayrılan vəsaitin həcmi 150 milyon manat azaldılmalıdır. Eyni zamanda, İşsizlikdən Sığorta Fondunun 2018-ci il büdcəsinin icrası nəticəsində yaranmış qalıq vəsaitindən 15 milyon manat vəsaitin cari ildə Fond tərəfindən istifadə olunması nəzərdə tutulur. İcmal büdcənin xərclərinin yuxarı həddinin 215 milyon manat artırılaraq 27,4 milyard manata çatdırılması, DSMF-nin bu illik büdcə gəlirlərinin 350 milyon manat, xərclərinin isə 200 milyon manat artırılması, dövlət büdcəsindən Fonda ayrılan transfertin məbləğinin 150 milyon manat azaldılması, İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlir və xərclərinin bərabər olaraq 15 milyon manat artırılması təmin olunacaq. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, nəzərdə tutulan dəyişikliklər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna dövlət büdcəsindən ayrılan transfertin 150 milyon manat azaldılaraq, həmin vəsaitin xüsusi müdafiə təyinatlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi; DSMF-nin xərclərinin 200 milyon manat, İşsizlikdən Sığorta Fondunun xərclərinin isə 15 milyon manat artması səbəbindən icmal büdcə xərclərinin yuxarı həddinin cəmi 215 milyon manat artırılması; sosial paket çərçivəsində DSMF-nin gəlirlərinin 350 milyon manat, xərclərinin isə 200 milyon manat artırılması nəticəsində qanunda müvafiq düzəlişlər edilərək, gəlirlərin xərclərdən artıq olan hissəsi (150 milyon manat) həcmində dövlət büdcəsindən transfertin azaldılması məqsədlərini daşıyır.

Sonra "Məhkəmələr və hakimlər haqqında", "Dövlət satınalmaları haqqında" qanunlarda və Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirə olunaraq təsdiqlənib.

Müzakirəyə təqdim olunan "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi haqqında sənədin təqdimatında bildirilib ki, qanun layihəsi əmək pensiyalarının minimum məbləğinin 2019-cu il 1 oktyabr tarixdən artırılaraq 160 manatdan 200 manata çatdırılması məqsədi daşıyır. "İşsizlikdən Sığorta Fondunun 2019-cu il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi isə özünüməşğulluq tədbirlərinin təşkilinin maliyyələşməsi üzrə xərclərin artırılması məqsədi daşıyır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Sonra "Beynəlxalq Hərbi Tibb Komitəsinin Nizamnaməsi"nə qoşulmaq haqqında", "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi barədə Protokolun təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Koreya Respublikası Hökuməti arasında qrant yardımına dair" Çərçivə Sazişinin təsdiq edilməsi haqqında" qanun layihələri də səsvermə yolu ilə qəbul edilib.

İclasda "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında", "Sığorta fəaliyyəti haqqında", "Dövlət rüsumu haqqında", "Təhsil haqqında", "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Büdcə sistemi haqqında", "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Kredit ittifaqları haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" qanunlarda, Vergi, İnzibati Xətalar, Miqrasiya və Cinayət məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələri üçüncü oxunuşda müzakirə olunaraq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda şərh edib. Bildirilib ki, dəyişiklik maliyyə bazarlarına nəzarət orqanına haqların ödənilməməsinə görə inzibati cərimə növündə inzibati tənbeh tədbirinin tətbiq edilməsi məqsədilə təklif edilir. Maliyyə Bazarlarına Nəzarət Palatasına maliyyə bazarlarında nəzarət edilən subyektlər tərəfindən ödənilən haqların məbləği və ödənilmə qaydası həmin Palatanın 2017-ci il 5 aprel tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş Qaydalar ilə müəyyən olunur. Qanun layihəsi səsə qoyularaq təsdiqlənib.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Aqrar sığorta haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim etdikdən sonra sənəd səsvermə yolu ilə qəbul edilib.

Sonra Əli Hüseynli "Məhkəmələr və hakimlər haqqında" Qanunda, Mülki Prosessual, Cinayət-Prosessual, İnzibati Prosessual məcəllələrdə dəyişiklik edilməsi haqqında qanun layihələrini ikinci oxunuşda müzakirəyə təqdim edib. Bildirilib ki, layihələr Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 2019-cu il 3 aprel tarixli Fərmanın icrası ilə əlaqədar hazırlanıb. Belə ki, həmin Fərmanda sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması barədə normativ hüquqi aktların layihələrinin hazırlanması nəzərdə tutulur. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq təsdiq edilib.

Cinayət-Prosessual, Cinayət və Mülki məcəllələrdə dəyişiklik edilməsi haqqında və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrini ikinci oxunuşda təqdim edən Əli Hüseynli bildirib ki, bu 4 məsələ Milli Məclisə eyni zərfdə daxil olub. Bu dəyişikliklər ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi istiqamətində Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

İclasda Mülki Məcəlləyə dəyişiklik edilməsi haqqında qanun layihəsi də birinci oxunuşda təsdiqlənib.

Sonra Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə "Bələdiyyələrin statusu haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirilib ki, bu dəyişiklik müvafiq icra hakimiyyəti orqanının bələdiyyələrin fəaliyyətinin təşkilinə metodoloji yardım etməsini təmin etmək məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Mənzil və Vergi məcəllələrində, "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri də birinci oxunuşda səsə qoyularaq təsdiqlənib.

Daha sonra iclasda "Bank olmayan kredit təşkilatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə birinci oxunuşda baxılıb. Dəyişikliklər nəticəsində BOKT-lərdəki inzibatçıların daha ixtisaslı kadrlarla əvəz olunması, zərurət yarandığı təqdirdə nəzarət orqanının çevik və effektiv təsir imkanlarından istifadə edilməsi, sistemin sağlamlaşdırılması, tələblərə cavab verməyən BOKT-lərin kənarlaşdırılması, istehlakçıların hüquqlarının qorunması və digər sahələrdə inkişaf üçün hüquqi əsasın formalaşacağı qeyd edilib. Sənəd səsə qoyularaq təsdiqlənib.

Eldar İbrahimovun təqdimatında İnzibati Xətalar və Gömrük məcəllələrində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədlər birinci oxunuşda müzakirə edilib. Bildirilib ki, qanun layihələri "Yeyinti məhsulları haqqında" Qanunda dəyişikliklər edilməsi barədə" 2018-ci il 23 fevral tarixli 1012-VQD nömrəli qanuna uyğunlaşdırma məqsədilə hazırlanıb. Qanun layihəsi səsə qoyularaq təsdiq edilib.

Sonra Əmək, Su və İnzibati Xətalar məcəllələrində, "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Həmkarlar ittifaqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət əmlakının özəlləşdirilməsi haqqında", "Gənclər siyasəti haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "Daşınar əmlakın yüklülüyü haqqında", "İşsizlikdən sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Publik hüquqi şəxslər haqqında", "Avtomobil nəqliyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda müzakirə olunub. Bu sənədlər ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Ziyad Səmədzadə "Lombardlar haqqında" yeni qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirilib ki, sənəd qanunvericilik təşəbbüsü qaydasında Prezident İlham Əliyev tərəfindən təqdim olunub. 6 fəsil və 32 maddədən ibarət olan qanun layihəsinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin birinci hissəsinin 15-ci və 27-ci bəndlərinə uyğun olaraq hazırlandığı qeyd olunub. Qanun layihəsində lombardlar tərəfindən kreditlərin verilməsi və əşyaların saxlanmaya qəbul edilməsi, habelə lombardlar tərəfindən həyata keçirilən fəaliyyətin nizamlanması və ona nəzarət ilə bağlı münasibətləri tənzimləyir. Qanun layihəsi səsvermə yolu ilə təsdiq edilib.

İclasın sonunda "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənəd birinci oxunuşda müzakirə olunub. Qeyd edilib ki, təklif olunan qanun layihəsi İpoteka və Kredit Zəmanət Fondunun satın aldığı yaşayış sahələrinə "Dövlət satınalmaları haqqında" Qanunun tətbiq edilməməsi məqsədi daşıyır ki, bu da yaşayış sahələrinin daha operativ əldə olunmasına xidmət edəcək. Qanun layihəsi səsvermə yolu ilə təsdiq edilib.

Bununla da Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası başa çatıb.

**NARDAR**

# Dövlət İdarəçilik Akademiyasında “Azərbaycanın davamlı inklüziv inkişafında könüllülər fəaliyyətinin rolu” istiqaməti üzrə ixtisasartırma kursuna başlanılıb



İyunun 27-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Azərbaycanın davamlı inklüziv inkişafında könüllülər fəaliyyətinin rolu” istiqaməti üzrə ixtisasartırma kursuna başlanılıb.

AZƏRTAC xəbər verir ki, ikigünlük kursda Azərbaycanın 25 şəhər və rayonundan dinləyicilər iştirak edirlər.

Kursun ilk məruzəçisi Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov ölkəmizdə könüllülük hərəkatının mahiyyətindən, tarixindən, onun cəmiyyətdə xüsusiyyətlərindən danışıb, eləcə də könüllülər və Azərbaycanın gənclər siyasəti haqqında dinləyicilərə ətraflı məlumat verib. Vurğulayıb ki, Azərbaycanda könüllülük hərəkatının tarixi hələ Xürrəmilər dövründən başlayıb. Babək Azərbaycanı yadelli işğalçılardan qorumaq üçün xalqa müraciət edib və ətrafına toplaşan könüllülərlə torpaqlarımızın işğalına qarşı mübarizə aparıb. Müasir Azərbaycanda isə könüllülük sahəsində inkişaf məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Onun 1994-cü ildə dövlət çevrilişinə cəhd zamanı xalqa müraciət etməsi müasir dövrümüzdə könüllülük hərəkatının nadir nümunəsidir. O zaman xalqa müraciət edildikdən 1-2 saat sonra Prezident Administrasiyasının qarşısına 100 minlərlə insan toplaşmışdı. Könüllülük Azərbaycan xalqının xüsusiyyətindən, qəlbindən irəli gəlir.

Professor Əli Həsənov, həmçinin Heydər Əliyev Fondunun həyata keçirdiyi humanitar təşəbbüslərə də toxunub və bu layihələrin təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də reallaşdırıldığını bildirib.

Sonra Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov dinləyicilər qarşısında “Dövlət idarəçiliyində yeni texnologiyalar: Azərbaycan Respublikasının innovativ təcrübəsi beynəlxalq təşkilatların sənədlərində” adlı məruzə ilə çıxış edib, könüllülük hərəkatının Azərbaycanda rolundan danışıb. Qeyd olunub ki, könüllülük öz iradəsi və sərbəst seçimi əsasında heç bir maddi xeyrə əsaslanmayan və cəmiyyətin rifahının daha da yaxşılaşdırılmasını qarşıya məqsəd qoyan sosial fəaliyyət istiqaməti hesab olunur.

Daha sonra Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və elmi araşdırmalar departamentinin direktoru Məhəbbət Mehdiyevanın “Heydər Əliyev və Azərbaycan dövlətçiliyi”, Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin baş məsləhətçisi İrfan Davudovun “Azərbaycanda gənclər siyasətinin əsas istiqamətləri” mövzularında məruzələri dinlənilib.

Kurs iyunun 28-də başa çatacaq.

# Bakıda yerdəyişmə üzrə tərəfdaşlığa dair beynəlxalq konfrans keçirilib




“Azərbaycanla yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsinə dəstək” (MOBILAZE) layihəsinin yekunlaşması ilə əlaqədar iyunun 27-də Bakıda Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında yerdəyişmə üzrə tərəfdaşlığa dair illik beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Dövlət Miqrasiya Xidmətinin (DMX) rəisi Vüsal Hüseynov, xarici işlər nazirinin müavini Ramiz Həsənov, Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas və Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) baş direktoru Mikael Şpindelegger və digərləri çıxış edərək Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin genişləndirilməsi istiqamətində həyata keçirilən layihələrdən, əməkdaşlığın genişləndirilməsi imkanlarından danışıblar. Görülən tədbirlərin Avropa İttifaqı vətəndaşlarına sürətlə inkişaf edən Azərbaycanı tanımaları, münasibətləri inkişaf etdirmək üçün əlverişli imkan yaratdığı qeyd olunub. Bildirilib ki, Aİ-nin dəstəyi ilə MSİBM-in ölkəmizdə həyata keçirdiyi layihə Azərbaycanın Xarici İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidməti ilə birgə əməkdaşlıq çərçivəsində icra olunub.

Diqqətə çatdırılıb ki, konfrans yerdəyişmə üzrə tərəfdaşlıq prioritetləri, miqrasiya və yerdəyişmənin müxtəlif sahələri üzrə istiqamətlərin müzakirəsi üçün regional platformanın təşkili, habelə MOBILAZE layihəsinin icrasının yekunlaşması ilə bağlıdır.

Aİ ilə Azərbaycan arasında 2013-cü ildə imzalanmış “Azərbaycan Respublikası, Avropa İttifaqı və onun iştirakçı üzv dövlətləri arasında Yerdəyişmə üzrə Tərəfdaşlıq barədə Birgə Bəyannamə” yerdəyişmə proseslərini və insanlararası əlaqələri dəstəkləmək, habelə belə proseslərin səmərəli idarə olunmasını təmin etmək üçün iki tərəf arasında gələcəkdə də davam etdiriləcək dialoqun və əməkdaşlığın çoxsaylı prioritetlərini müəyyənləşdirib.

Çıxış edənlər miqrasiya və yerdəyişmə sahəsində Aİ ilə əməkdaşlığın prioritetlərini qeyd edib, MOBILAZE layihəsinin dövlət qurumları üçün əhəmiyyətini diqqətə çatdırıblar. Bildirilib ki, yerdəyişmə üzrə tərəfdaşlıq miqrasiya və yerdəyişmə sahəsində Aİ və ona üzv dövlətlər, eləcə də üçüncü ölkələr arasında ən müfəssəl əməkdaşlıq və tərəfdaşlıq çərçivələrindən biridir. Bu əməkdaşlıq Aİ-nin miqrasiya və yerdəyişmə üzrə qlobal yanaşması çərçivəsində Aİ-yə və tərəfdaş ölkələrə, hər iki tərəfin vətəndaşlarına, eləcə də digər əlaqədar tərəflərə miqrasiya və yerdəyişmə məsələlərini ünvanlı, xüsusi ehtiyaclara uyğun şəkildə müzakirə etmək imkanı verir.

Tədbirdə Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin məntiqi nəticəsi kimi miqrasiya idarəetməsi və miqrasiya proseslərinin tənzimlənməsi sahəsində əldə edilmiş nəticələrdən söhbət açılıb. Avropa İttifaqı ilə birgə həyata keçirilən, Aİ ilə Azərbaycan arasında yerdəyişməyə dair ictimai məlumatlılığı artırmağa xidmət edən MOBILAZE layihəsinin icrasının Azərbaycanın dövlət qurumları üçün əhəmiyyətindən, əldə edilən uğurlardan, miqrasiya və yerdəyişmə sahəsində regional əməkdaşlığın genişləndirilməsi baxımından önəmindən danışılıb, layihənin nəticələri qənaətbəxş qiymətləndirilib. Bundan başqa, ölkəmizlə Aİ arasında readmissiya, miqrasiya və qanunsuz miqrasiyanın qarşısının alınması sahəsində sıx əməkdaşlıq vurğulanıb.

Qeyd edilib ki, Aİ ilə Azərbaycan arasındakı yerdəyişmə üzrə tərəfdaşlıq insanlara konkret fayda gətirməklə yanaşı, dövlətlər arasında nəticəyönümlü əməkdaşlıq və dialoqa şərait yaradıb.

Konfransda Azərbaycanın və beynəlxalq təşkilatların miqrasiya sahəsi üzrə ekspertləri miqrasiya və yerdəyişmələrə regional yanaşmalar, eləcə də bu sahə üzrə əməkdaşlığın gələcəkdə də inkişaf etdirilməsi məsələləri barədə müzakirələr aparıblar.

MOBILAZE layihəsinin əlaqələndiricisi Violeta Vaqner layihə çərçivəsində görülən işlər, onun nəticələri və bu sahədə qazanılan nailiyyətlər barədə məlumat verib.

Qeyd edək ki, MOBILAZE layihəsinin icrasına 2016-cı ildən başlanılıb. Layihənin əsas məqsədi miqrasiya sahəsində dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi üçün hökumətin potensialının artırılmasına xüsusi diqqət yetirməklə, Avropa İttifaqı ilə Azərbaycan arasında yerdəyişmə üzrə tərəfdaşlığın həyata keçirilməsini dəstəkləməkdən ibarətdir. Layihəyə Aİ-nin yeddi ölkəsindən doqquz qurum cəlb olunub. Beş komponentdən ibarət layihə məlumatlı miqrasiya siyasətinin hazırlanması üçün analitik səriştənin formalaşması, respublikamıza və Azərbaycandan digər ölkələrə qanuni miqrasiya, sənədlərin təhlükəsizliyi, sığınacaqla bağlı qərarların qəbul edilməsi prosedurunun təkmilləşdirilməsi, geri qayıdış və reinteqrasiya məsələlərini əhatə edir. Layihə çərçivəsində müxtəlif mövzularda təlimlər, seminarlar, təcrübə səfərləri, görüşlər və beynəlxalq tədbirlər təşkil olunub.

# Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclası keçirilib



İyunun 27-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik Akif Əlizadə iştirakçıları gündəliklə tanış edib.

Gündəliyə əsasən, iclasda AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Nəcəf Müseyiblinin “Azərbaycanda arxeoloji tədqiqatlar: nailiyyətlər və perspektivlər” mövzusunda məruzəsi dinlənilib. Alim bildirib ki, arxeoloji tədqiqatlar Azərbaycanın qədim tarixinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir. Nəcəf Müseyibli müxtəlif dövrlərdə ölkəmizdə aparılan arxeoloji tədqiqatlar və əldə olunan nailiyyətlər haqqında məlumat verib. O, arxeologiya elminin perspektivlərini müəyyənləşdirən bir sıra mühüm vəzifələrdən danışıb, digər elm sahələri ilə daha intensiv əlaqələr qurulmasının, multidissiplinar tədqiqatların genişləndirilməsinin zəruriliyini vurğulayıb.

Məruzə dinlənildikdən sonra müzakirə aparılıb, suallar cavablandırılıb, müvafiq qərar qəbul olunub.

Sonra elmi-təşkilati məsələlərə baxılıb. İlk olaraq AMEA-nın 75 illik yubileyi haqqında məsələ müzakirə edilib. Bununla bağlı çıxış edən akademik Akif Əlizadə 2020-ci ilin mart ayında AMEA-nın yaradılmasının 75 ilinin tamam olacağını bildirib. O, AMEA-nın təsis edilməsinin Azərbaycan xalqının elmi və ictimai fikir tarixində mühüm hadisə olduğunu, ölkəmizin sosial-iqtisadi və mədəni-mənəvi inkişafında böyük əhəmiyyət kəsb etdiyini deyib. Vurğulayıb ki, AMEA bu illər ərzində xalqımızın intellektual potensialının formalaşdırılmasında, elmin müasir zamanın tələblərindən irəli gələn strateji istiqamətlərinin müəyyənləşdirilməsində, fundamental və tətbiqi elm sahələrinin inkişafında, respublikada peşəkar elmi kadrlar nəslinin yetişdirilməsində müstəsna rol oynayıb.

XX əsrin ikinci yarısında, xüsusilə Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə akademiyada xeyli nailiyyətlər əldə olunduğunu deyən akademik Akif Əlizadə Ulu Öndərin müstəqillik illərində xalqın tələbi ilə hakimiyyətə qayıdışı nəticəsində AMEA-nın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. Bildirib ki, Ümummilli Liderin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin elmə göstərdiyi diqqət və qayğı nəticəsində AMEA-nın fəaliyyət dairəsi xeyli genişləndirilib, səlahiyyətləri artırılıb, ölkəmizdə elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək, iqtisadiyyatı gücləndirmək, mədəniyyəti zənginləşdirmək, xalqın milli mənafeyini qorumaq baxımından akademiyanın qarşısına mühüm vəzifələr qoyulub. Akif Əlizadə akademiyanın 2015-ci ildə qeyd olunan 70 illik yubileyində iştirak edən dövlətimizin başçısının dərin məzmunlu nitqi ilə Azərbaycan elminin respublikanın inkişafını şərtləndirən prioritet fəaliyyət istiqamətlərini müəyyənləşdirdiyini xatırladıb. Bu prioritet istiqamətlər üzrə AMEA-da kompleks tədbirlər həyata keçirildiyini, intellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin qurulmasından irəli gələrək akademiyanın ölkənin inkişafında mühüm rol oynadığını nəzərə çatdırıb.

İclasda AMEA-nın 75 illik yubileyi ilə bağlı təkliflər və tədbirlər planı hazırlanması qərara alınıb.

Gündəlikdə yer alan növbəti məsələ AMEA-nın Ümumi yığıncağının 2019-cu il 1 may tarixli qərarının yerinə yetirilməsi ilə bağlı tədbirlər planı haqqında olub. Akademik Akif Əlizadə bildirib ki, ötən il AMEA tərəfindən prioritet elmi istiqamətlər üzrə mühüm nailiyyətlər əldə edilib, elmi-texniki potensialın inkişafı, innovativ fəaliyyətin gücləndirilməsi, beynəlxalq elmi əməkdaşlığın genişləndirilməsi, elm, təhsil və iqtisadiyyat arasında əlaqələrin möhkəmləndirilməsi, kadr hazırlığı sisteminin müasir standartlara uyğun təkmilləşdirilməsi və digər istiqamətlərdə mühüm tədbirlər həyata keçirilib. AMEA rəhbəri akademiyanın elmi müəssisələrinin 2018-ci ildə çoxsaylı dövlət proqramlarının və digər dövlət əhəmiyyətli tapşırıqların icrasında yaxından iştirak etdiyini nəzərə çatdırıb. Vurğulayıb ki, bu işlərin davamı olaraq qarşıda duran vəzifələrin kompleks icrasını təmin etmək məqsədilə AMEA-nın Ümumi yığıncağında Rəyasət Heyətinə 2019-cu ildə akademiyada icrası zəruri olan bir sıra tapşırıqlar verilib. Akif Əlizadə həmin tapşırıqların həyata keçirilməsi üçün təkliflər və tədbirlər planı hazırlanaraq AMEA Rəyasət Heyətinə təqdim olunduğunu bildirib. İclasda Rəyasət Heyəti tədbirlər planını təsdiq edib və bu istiqamətdə tapşırıqlar verib.

Tədbirdə akademiklər Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov, Zərifə Əliyeva, Yusif Məmmədəliyev, Murtuza Nağıyev, Üzeyir Hacıbəyli, Mikayıl Useynov, Səməd Vurğun, Musa Əliyev, Həsən Əliyev, Zahid Xəlilov, Azad Mirzəcanzadə, Həsən Abdullayev və professor Lütfi Zadə adına xatirə nişanları haqqında əsasnamələr təsdiq edilib.

AMEA-nın Rəyasət Heyəti aparatının Strateji Elmi Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi Adil Ağayevin AMEA-nın Xatirə nişanı ilə təltif edilməsi qərara alınıb.

İclasda AMEA-nın Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının şöbə müdiri, fizika üzrə fəlsəfə doktoru Canməmməd Rüstəmovun Estoniyaya, həmin müəssisənin elmi işçisi Aynur Abdulkərimovanın Çexiyaya, akademiyanın Genetik Ehtiyatlar İnstitutunun böyük elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru Cəmalə Eldarovanın ABŞ-a, AMEA-nın Botanika İnstitutunun şöbə müdiri, biologiya üzrə fəlsəfə doktoru Rəşad Səlimovun və Mərkəzi Nəbatat Bağının sektor müdiri, biologiya üzrə fəlsəfə doktoru Fərid Seyfullayevin Almaniyaya ezam edilmələri haqqında qərarlar qəbul edilib.

Rəyasət Heyətinin digər qərarları ilə AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun strukturlarında qismən dəyişiklik edilib.

İclasda AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illik yubileyi ilə bağlı tədbirlər planı təsdiq edilib, sənədin icrasına dair tapşırıqlar verilib. Habelə AMEA-nın alimlərinin yubileylərinin keçirilməsi haqqında qərarlar qəbul olunub.

Akademiyanın Rəyasət Heyətinin qərarı ilə geologiya-mineralogiya üzrə fəlsəfə doktoru Samir Məmmədov “AMEA Yüksək Texnologiyalar Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətinin infrastruktur üzrə direktor müavini vəzifəsinə təsdiq edilib.

# Mərkəzi Seçki Komissiyasının sədri Slovakiyaya səfər edib

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov iyunun 27-28-də keçiriləcək Seçki İdarəetmə Orqanlarının 16-cı Avropa Konfransında iştirak etmək məqsədilə Slovakiya Respublikasına səfər edib.

MSK-dan AZƏRTAC-a bildiriblər ki, “Seçki mübahisələrinin həlli” mövzusunda keçiriləcək, dünyanın müxtəlif ölkələrindən çoxsaylı ali seçki qurumlarının və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin, habelə beynəlxalq seçki ekspertlərinin də qatılacağı tədbir seçkilərə dair bir sıra məsələlərin və ölkələrin əldə etdiyi yaxşı təcrübələrin müzakirəsinə həsr olunub.

Avropa Şurası Venesiya Komissiyasının rəhbəri Tomas Markertin dəvətinə əsasən həyata keçirilən səfər çərçivəsində sədr M.Pənahovun seçki idarəetmə qurumlarının və beynəlxalq təşkilatların rəhbərləri, eləcə də digər rəsmi şəxslərlə görüşləri, qurumlararası əlaqələrin inkişaf perspektivləri, qarşılıqlı faydalı əməkdaşlıq və maraq doğuran məsələlər ətrafında müzakirələrin aparılması nəzərdə tutulur.

Səfər zamanı MSK sədrini Komissiya Katibliyinin müdiri Rövzət Qasımov müşayiət edir.

# Sevinc Fətəliyeva: Hər hansı həssas məsələ ilə bağlı bir işdə şəxsi maraqların üstün tutulması yolverilməzdir



Jurnalistin qətli, xüsusilə də korrupsiya ilə bağlı araşdırmalara əngəllər yaradılması qəbuledilməzdir. Ancaq hər hansı ciddi məsələnin araşdırılmasına öz maraqlarını daxil edib diqqəti öz amalına çəkmək, ümumiyyətlə, yolverilməzdir. Həssas məsələ ilə bağlı belə bir işdə öz maraqlarını üstün tutmaq, onları belə məsələyə daxil etmək, qeyri-obyektiv faktlardan danışmaq düzgün deyil. Ümumiyyətlə, belə ciddi, həssas məsələnin məruzəçi tərəfindən manipulyasiya edilməsi dözülməzdir. Məruzəçidən sormaq istərdim hansı məqsədlə belə yollara əl atır? Məqsədi Azərbaycanı demokratik yoldan sapdırmaq, imicinə xələl gətirməkdirmi?

AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA-nın yay sessiyasında “Dafne Karuana Qalizianın qətli və Maltada və digər ölkələrdə hüquqi dövlət: bütün həqiqətlərin işıqlandırılmasını təmin etmək” adlı məruzənin müzakirəsi zamanı qurumdakı nümayəndə heyətimizin üzvü Sevinc Fətəliyeva söyləyib. Deputat bildirib ki, iqtisadi inkişafı ilə fərqlənən Azərbaycan Avropa Şurasına üzv dövlətlərlə iqtisadi, enerji sahələrində yüksəksəviyyəli əməkdaşlıq edir. Ancaq müzakirə olunan məruzədən görürük ki, onun müəllifinin bir məqsədi var, o da Azərbaycanın imicinə xələl gətirməkdir. **“Hər hazırladığınız məruzəyə ölkəmizin adını daxil etsəniz belə, bizi inkişaf yolumuzdan, Avropa Şurası ilə əməkdaşlıq yolundan, həmin təşkilatın dəyərlərinə sadiq qaldığımız yoldan yayındıra bilməzsiniz. Sizin Azərbaycana qarşı mövqeyiniz, “marağınız” hamıya bəllidir. Həqiqətən də Azərbaycan sizin üçün maraqlıdırsa, bu ölkədəki müsbət proseslər, onun xalqı sizə maraqlıdırsa onda enerjinizi və təşəbbüsünüzü düzgün istiqamətə yönləndirin. Ondan müsbət mənada istifadə edin. Azərbaycandakı bir milyon qaçqın və məcburi köçkünün hüquqlarına dair müzakirələr təşkil edin, işğal faktını müzakirə edin. Cəbhə xəttində erməni silahlı qüvvələri tərəfindən bu gün də günahsız uşaqların qətlə yetirilməsini müzakirə edin”**, - deyə S.Fətəliyeva vurğulayıb.

# Bakıda UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Abidə Menecerləri Forumu öz işinə başlayıb

İyunun 27-də Bakı Konqres Mərkəzində UNESKO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Abidə Menecerləri Forumu öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, iyulun 4-dək davam edəcək forum Azərbaycanın Mədəniyyət Nazirliyi, UNESKO-nun Dünya İrsi Mərkəzi, Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəz (ICCROM), "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası Üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə təşkil edilib.







Forumu Dünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı yaradılmış Təşkilat Komitəsinin sədri, Mədəniyyət naziri Əbülfəs Qarayev açaraq bildirib ki, dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının öz tədbirlərini Azərbaycanda keçirməsi müstəqil dövlətimizin nüfuzundan xəbər verir.

Nazir Azərbaycan-UNESKO münasibətlərinin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın əvəzsiz xidmətlərini xüsusi vurğulayıb. Bildirib ki, Dünya İrs Komitəsinin 42-ci sessiyasında Azərbaycan bir il müddətinə komitənin sədri seçilib. Ölkəmiz üçün böyük əhəmiyyətə malik belə bir qərarın qəbul edilməsi UNESKO ilə tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olmasının göstəricisidir.

Qeyd edib ki, Dünya İrs Konvensiyasına uyğun olaraq Dünya İrsi Siyahısına 276 milyon hektardan çox ərazini əhatə edən mindən çox abidə daxildir. Dünya İrsi Mülkiyyətinin daha səmərəli qorunmasına nail olmaq üçün Dünya İrsi Abidə Menecerləri Forumu böyük önəm daşıyır. Bu forum yeni təşəbbüs kimi 2017-ci ildə Polşanın Krakov şəhərində başlayıb və artıq üçüncü dəfədir keçirilir. Səkkiz gün ərzində davam edəcək forumda 50-dən çox ölkəni təmsil edən 70-ə yaxın şəxs iştirakı edir. Abidə menecerləri bu tədbir günləri ərzində bir sıra iclaslarda və yığıncaqlarda iştirak edəcəklər.

Azərbaycandakı bir neçə məkanın UNESKO-nun Dünya İrsi Siyahısına namizəd kimi irəli sürülməsinin nəzərdə tutulduğunu söyləyən nazir deyib ki, hazırda Şəkinin Xan Sarayı və şəhərin qədim hissəsinin bu siyahıya salınması üzərində iş gedir: **"Bakıda bu məsələ müzakirə olunacaq və ümid edirik ki, nəticə müsbət olacaq. Bir neçə variant var və onların bəzilərində nöqsanlar mövcuddur. Onları aradan qaldırdıqdan sonra yenidən məsələyə baxılacaq. Çalışacağıq ki, məsələ həll olunsun".**

Nazir bildirib ki, Hirkan milli parkının meşələri üçün İranın nominasiyası nəzərdə tutulur: **"Həmin meşənin Azərbaycana düşən hissəsini vahid məkan kimi təqdim etmək istəyirik. Bu, gələcəyin məsələsidir. Naxçıvandakı türbələrin də siyahıya salınmasını nəzərdə tuturuq. Hazırda bu məkanlar normal vəziyyətdə olduğundan elmi cəhətdən əsaslandırılması prosesi getməlidir".**

Əbülfəs Qarayev Abidə Menecerləri Forumunda dünyada mədəni irsin qorunması üçün əhəmiyyətli müzakirələrin aparılacağına ümidvar olduğunu vurğulayaraq tədbirin işinə uğurlar arzulayıb.

Tədbirdə Ümumdünya İrs Mərkəzinin direktoru Mextild Rossler, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun rəisi Əsgər Ələkbərov və başqaları çıxış edərək irsin qlobal anlamından bəhs edib, eləcə də Abidə Menecerləri Forumunun yeni biliklərin əldə edilməsi, əlaqələrin qurulması və təcrübənin qazanılması nöqteyi-nəzərdən önəmindən danışıblar.

Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Öyrənilməsi üzrə Beynəlxalq Mərkəzin (ICCROM) baş direktoru Uebber Ndoro forum iştirakçılarına videomüraciət edib və onlara uğurlar arzulayıb.

Qeyd edək ki, forumun gündəliyinə Abidə Menecerləri Forumunun Dünya İrsi çərçivəsində və Potensial Yaradılması sahəsində məqsəd və obyektləri, Dünya İrsi və Dayanıqlı İnkişaf - 2015-ci il idarəetmə sənədi ilə tanışlıq, Mədəniyyət mənzərələri və Dünya İrsinin xüsusiyyətləri nəzdindəki konservativ tətbiqlərə dair əsas təqdimat və digər mövzular daxildir.

Bundan əlavə forum iştirakçıları "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunu, "Qobustan" Dövlət Tarixi-Bədii Qoruğunu və digər yerləri gəzəcəklər.

İyulun 2-də iştirakçılar Dünya İrs Komitəsinin 43-cü sessiyasında xüsusi bəyanat ilə çıxış edəcəklər.

# AZƏRTAC-ın da təsisçisi olduğu "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı platforması istifadəyə verilib






İyunun 27-də Çinin paytaxtı Pekində "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı platformasının istifadəyə verilməsi mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, cari ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etdiyi II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunun nəticələrinin icrası istiqamətində Çinin Sinxua agentliyinin təşəbbüsü ilə yaradılan platforma "Bir kəmər, bir yol" təşəbbüsünün əhatə etdiyi ölkələrin iqtisadi həyatında, xüsusən də dövlətlərin qeyd olunan təşəbbüs çərçivəsində əməkdaşlığına dair xəbərlərinin mübadiləsi və maraqlı qurumlar, o cümlədən biznes birlikləri, şirkətlər arasında yayılmasını təmin etmək məqsədi daşıyır.

Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC Sinxuanın bu təşəbbüsünü dəstəkləyən ilk media qurumlarından biri olmaqla, platformanın təsisçi-üzv statusuna malikdir. AZƏRTAC bu platforma vasitəsilə beynəlxalq ticarət yollarının və nəqliyyat dəhlizlərinin üzərində yerləşən Azərbaycanın iqtisadi inkişafı, irimiqyaslı enerji layihələri, biznes və sərmayə mühiti, Asiya ilə Avropa arasında ən qısa dəmir yolu bağlantısını təmin edən Bakı-Tbilisi-Qars dəmir yolunun da daxil olduğu Transxəzər beynəlxalq nəqliyyat marşrutunun fəaliyyəti, ölkəmizin logistika potensialı, turizm infrastrukturu, xarici ticarəti və iqtisadi qanunvericiliyinə dair xəbərlərini geniş auditoriyaya yaya biləcək.

Mərasimdə çıxış edən Sinxua agentliyinin prezidenti Çay Mincao platformanın yaradılmasında yaxından iştirak edən 26 ölkədən 30-dan çox quruma təşəkkür edib. Bildirib ki, "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığı xəbər mübadiləsi ilə yanaşı, nüfuzlu media qurumları arasında səmərəli əməkdaşlığın bariz nümunəsidir. Platformaya təkcə KİV-lərin deyil, eləcə də tədqiqat mərkəzlərinin, ticarət və sənaye palatalarının daxil olması onların birgə əməkdaşlığı üçün də yeni imkanlar yaradır. Platformaya daxil olan KİV-lərin və digər qurumların xəbərləri, analitik məqalələri, elmi araşdırmaları "BRİnfo" adlı internet portalında yayılacaq.

Tədbirdə Beynəlxalq Valyuta Fondunun Çindəki baş nümayəndəsi Alfred Şipke, İtaliyanın "Class Editori" media şirkətinin idarə heyətinin sədri Paolo Panerai, Rusiyanın TASS agentliyinin baş redaktoru Marat Abulxatin, Braziliyanın "CMA" xəbər agentliyinin direktoru Rafael Bozzolan Xuan və digərləri "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığının ölkələrin iqtisadi həyatında baş verən yeniliklər barədə bir-birinin məlumatlandırılması üçün geniş imkanlar yaratdığını bildiriblər.

Mərasimdən sonra platformanın ilk iclasında "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığının nizamnaməsi qəbul edilib. Nizamnaməyə əsasən, platforma yeni üzvlər üçün açıqdır. Onun ildə bir dəfə keçiriləcək toplantısında platformanın fəaliyyətinə dair qərarlar qəbul olunacaq, yeni üzvlərin müraciətlərinə baxılacaq, növbəti toplantının vaxtı və yeri təkliflər əsasında müəyyən ediləcək. Təşkilata ümumi rəhbərliyi rəyasət heyəti həyata keçirəcək. Sinxua agentliyi platformanın əlaqələndirici ofisinin fəaliyyətini təmin edəcək.

İclasda çıxış edən AZƏRTAC-ın Çindəki nümayəndəsi Şahin Cəfərov agentliyin İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) prezidenti, Dünya Xəbər Agentlikləri Konqresi Bürosunun üzvü Aslan Aslanovun təbriklərini çatdırıb. Bildirib ki, gələn il 100 yaşını qeyd edəcək AZƏRTAC təkcə ölkəmizin deyil, yerləşdiyi regionun aparıcı xəbər agentliyi olmaqla yanaşı, beynəlxalq media əməkdaşlığında fəal iştirak edir. AZƏRTAC-ın Dünya Xəbər Agentliklərinin V Konqresinə, OANA-nın XVI Baş Assambleyasına və MDB iştirakçısı olan ölkələrin Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının XXII iclasına 2016-cı ilin noyabrında eyni vaxtda ev sahibliyi etməsi agentliyin beynəlxalq media məkanında geniş fəaliyyətinin nəticəsi olub.

Qeyd edilib ki, xəbərlərini Azərbaycan, ingilis, rus, fransız, alman, ərəb, Çin və ispan dillərində yayan AZƏRTAC Çin KİV-ləri, o cümlədən Sinxua agentliyi, "Jenmin Jibao", "China Daily" və "Global Times" qəzetləri ilə uğurlu əməkdaşlıq edir. AZƏRTAC ilə Sinxuanın 2003-cü ildən başlayan əməkdaşlığı dövründə birgə fotosərgilər, təqdimatlar, informasiya və təcrübə mübadiləsi həyata keçirilib. Eyni zamanda, hər iki agentlik Dünya Xəbər Agentlikləri Konqresində və OANA-da sıx əməkdaşlıq edir. Ötən ilin iyununda Şanxay Əməkdaşlıq Təşkilatının Pekində keçirilmiş birinci media sammiti çərçivəsində iki agentlik arasında yeni əməkdaşlıq sazişi imzalanıb.

Bildirilib ki, Sinxua da daxil olmaqla Çin KİV-lərinin media layihələrində fəal iştirak edən AZƏRTAC "Bir kəmər, bir yol" İqtisadi İnformasiya Tərəfdaşlığının fəaliyyətinə də hər cür dəstək verəcək.

# Konstitusiya Məhkəməsində keçirilən Könüllü Proqramında iştirak edən gənclərə sertifikatlar təqdim edilib

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təməlini qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətində gənclərin iştirakı müasir dövrün tələbləri səviyyəsində davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə "Dövlət Proqramı"nda və dövlətimizin başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş Respublika toplantısındakı çıxışında dövlət orqanlarına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoyulub.



Bununla əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri tərəfindən bu il fevralın 12-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatında könüllülərin fəaliyyətini təşkil etmək məqsədilə İşçi Qrupu yaradılması haqqında Əmr imzalanıb.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində aprel ayında başlanılan könüllü proqramı uğurla həyata keçirilir. Konstitusiya Məhkəməsində Könüllü Proqramında iştirak etmək üçün gənclər müraciət edərək, böyük maraqla iştirak edirlər.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyunun 25-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində könüllü olaraq fəaliyyətə cəlb edilən bir qrup gəncə sertifikatlar verilib. "Könüllülük fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq, könüllü kimi iki ay müddətində fəaliyyət göstərib müqavilə öhdəliklərini uğurla başa vuran gənclərin hər birinə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən xüsusi sertifikatlar təqdim edilib. Bu da onların əmək fəaliyyətinə uğurlu bir keçid fürsəti olacaq.

Məhkəmənin fəaliyyətində iştirak edən könüllülər Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquq fakültəsinin məzunları ilə yanaşı, Odlar Yurdu Universitetinin, Qafqaz Universitetinin pedaqoji, tərcümə, ingilis dili müəllimliyi, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasları üzrə məzunları da olub.

Konstitusiya Məhkəməsində könüllülər Aparatın müxtəlif şöbə və sektorlarında təcrübə keçmiş, Plenum iclaslarının təşkil edilməsi prosesində, habelə vətəndaşların qəbulunda bilavasitə iştirak edib, səlahiyyətli subyektlərin sorğuları, məhkəmənin müraciətləri, həmçinin vətəndaşların şikayətlərinin öyrənilməsi vasitəsilə Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqların müdafiə mexanizmi ilə yaxından tanış olublar.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində həyata keçirilən Könüllü Proqramında könüllü kimi iştirak etmək arzusunda olan gənclərin sənədlərinin qəbulu davam etdirilir.

# Azərbaycan multikulturalizmi Braziliyada tədris olunacaq

2019-2020-ci dərs ilindən etibarən "Azərbaycan multikulturalizmi"nin tədris olunduğu xarici universitetlər sırasına Braziliya Federal Universitetinin də (Universidade de Brasilia) adı əlavə olunacaq. Beləliklə, Multikulturalizm Mərkəzi 21-ci xarici ölkə universitetində "Azərbaycan multikulturalizmi" fənninin tədrisini həyata keçirəcək. Artıq universitet rəhbərliyinin təklifi müsbət dəyərləndirilib və BBMM ilə Braziliya Federal Universiteti arasında qarşılıqlı anlaşma memorandumu bağlanıb.







"Azərbaycan multikulturalizmi" fənnini Braziliya Federal Universitetinin professoru Leila Bijos tədris edəcək. Onu da əlavə edək ki, Leila Bijos 2018-ci ilin yayında BBMM-də Azərbaycan multikulturalizmi ilə bağlı araşdırmalar aparıb. Üç ay müddətində aparılan tədqiqatlar Braziliyada "Azərbaycan multikulturalizmi" adlı kitab şəklində nəşr olunub. Portuqal dilində işıq üzü görən kitabda tədqiqatçı Azərbaycan multikulturalizmi modelinin uğurundan, eləcə də ölkəmizdəki multikultural və tolerant mühitdən ətraflı şəkildə bəhs edib.

BBMM bu günədək dünyanın bir çox ölkələrinin nüfuzlu ali məktəblərində "Azərbaycan multikulturalizmi" fənninin tədrisini həyata keçirsə də, Braziliya Federal Universiteti ilə Latın Amerikası ölkələrində bu sahədə ilk addımı atmış olacaq. Yeni dərs ilində Azərbaycanın Braziliyadakı səfirliyinin nümayəndələri, eləcə də həmin ölkənin nüfuzlu elm xadimləri "Azərbaycan multikulturalizmi" fənninin ilk tədris günündə iştirak edəcəklər. BBMM-in hər il təşkil etdiyi Beynəlxalq Qış və Yay Multikulturalizm məktəblərinə Cənubi Amerika ölkələrindən qatılan gənclərin sayının artması, eləcə də Mərkəzlə Braziliya universitetləri arasındakı qarşılıqlı münasibətlərin uğurlu inkişafı nəticəsində "Azərbaycan multikulturalizmi" fənninin nüfuzlu Rio-de-Janeyro Federal Universitetində də tədris edilməsi planlaşdırılır. Artıq həmin universitetin professoru Aleksandr Jerbit Azərbaycan multikulturalizmi sahəsində araşdırma aparmaq üçün BBMM-ə müraciət edib.

Bütün bunlar göstərir ki, Azərbaycan multikulturalizmi modelinə xarici ölkələrdə maraq gündən-günə artmaqdadır. Bu modelin elmi müstəvidə öyrənilməsi və araşdırılması BBMM tərəfindən uğurla davam etdiriləcək. Yaxın gələcəkdə bu tədris layihəsinə yeni-yeni xarici ölkə universitetlərinin qoşulması mümkün olacaq.

Qeyd edək ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsi uğurla davam edir. Hazırda bu layihə çərçivəsində dünyanın 20 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni magistratura pilləsində tədris olunur. Bununla yanaşı, Azərbaycan Respublikasının təhsil nazirinin əmri ilə 2019-2020-ci tədris ilindən etibarən, ölkəmizin bütün universitetlərində və bütün ixtisaslar üzrə "Azərbaycan multikulturalizmi" fənni əsas fənn kimi tədris olunacaq.

BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayevin ideya və təşəbbüsü ilə "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləri üzrə tədris proqramları Təhsil Nazirliyində təsdiq olunduqdan sonra, sözügedən layihəyə start verilib. Artıq fənnin tədrisində xeyli müsbət təcrübə əldə olunub. Azərbaycan dili ilə yanaşı, ingilis dilində də nəşr olunan "Azərbaycan multikulturalizmi" dərsliyinin istifadəsi tədrisin keyfiyyətinin daha da yüksəlməsinə imkan yaradıb.

Azərbaycanın multikulturalizm modeli ilə bağlı dərslər Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə xarici ölkə universitetləri arasında əldə edilən razılaşma əsasında keçirilir. Dərslər üçün qeydiyyatdan keçən tələbələr arasında gələcəkdə ölkəmizdə təhsil almaq, iş qurmaq, həmçinin öz universitetlərində Azərbaycanla bağlı fənn tədris etmək istəyən və bu məqsədlə mədəniyyətimiz, tariximiz, ədəbiyyatımız, habelə multikultural vəziyyətlə bağlı biliklərə yiyələnmək istəyənlər çoxluq təşkil edir. Seçilən tələbələr həm də Azərbaycanda BBMM tərəfindən təşkil edilən Beynəlxalq Qış və Yay Multikulturalizm məktəblərində iştirak etmək üçün şans qazanırlar. Bu da öz növbəsində, tələbələrə stimul verən amillərdən biridir. Göründüyü kimi, Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq" təşəbbüsünün real həllini tapması məqsədilə BBMM-in apardığı ardıcıl və məqsədyönlü iş öz yüksək nəticəsini verməkdədir. Artıq xaricdə "Azərbaycan multikulturalizmi" fənninin tədrisi daha geniş coğrafiyanı əhatə etməklə bərabər, öz təsir dairəsi və gücünü də artırmaqdadır.

# Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının ilk assambleyası keçirilib

***Fuad Nağıyev:** Turizm Agentlikləri Assosiasiyasının fəaliyyətə başlaması ölkəmizdə formalaşan turizm sənayesinin inkişafı istiqamətində atılan vacib addımlardan biridir*

İyunun 27-də Bakıda Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının ilk assambleyası keçirilib. Tədbirdə çıxış edən Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Turizm Agentlikləri Assosiasiyasının fəaliyyətə başlamasının ölkəmizdə formalaşan turizm sənayesinin inkişafı istiqamətində atılan vacib addımlardan biri olduğunu qeyd edib. O bildirib ki, agentlik turizmin ölkə iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilməsi üçün çalışır.




Fuad Nağıyevin sözlərinə görə, son illərdə bu sahədə kifayət qədər işlər görülüb: **"Ancaq bu sahədə bəzi sualların mövcud olması da məlumdur. Turizm özü kompleks xidmət sahəsidir və inkişafı da xidmət sferasının xidmətindən, inkişaf səviyyəsindən asılıdır. İnanırıq ki, assosiasiyanın gördüyü işlər bu sahənin nümayəndələrini bir araya toplayan güclü platforma rolunu oynayacaqdır".**






Azərbaycan Turizm Bürosunun baş icraçı direktoru Florian Zenqstşmid isə çıxışında turizm sənayesinin təşkilatlanmasının ümumi hədəflərə çatmaq üçün xüsusi əhəmiyyət kəsb etdiyini, Azərbaycan Hotel Assosiasiyasının və Azərbaycan Bələdçilər Assosiasiyasının, həmçinin Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının yaradılmasının bu istiqamətdə atılmış uğurlu addımlardan olduğunu bildirib.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının sədri Rüfət Hacıyev təşkilatın turizm agentliklərinin maraqlarını təmin edərək dövlət-özəl sektor əməkdaşlığının təşviqinə xidmət edəcəyini qeyd edib, görüləcək işlər, məqsədlər və gələcək fəaliyyət haqqında məlumat verib: **"Əsas məqsəd peşəkar və operativ yanaşmalar sərgiləmək, inkişafda olan turizmə yeni nəfəs bəxş etməkdir. Turizm sahəsi özündə 50-dən artıq sektoru birləşdirən sənayedir. Yeni yaradılan Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının əsas məqsədi ümumi rifah və nəticəyə fokuslanmaq, sahibkarlar və dövlət qurumları arasında daimi və sıx əlaqələr formalaşdırmaq, möhkəm körpü yaratmaqdır. Assosiasiyanın yaradılması ilə turizm şirkətlərinin rəy və təkliflərini bildirməsinə imkan yaranacaq".**

Yeni ictimai qurumun strukturu, məqsəd və missiyası, üzvlüyə namizəd standartlarına dair məsələlərə də geniş toxunulan tədbirin ikinci mərhələsində maarifləndirici təhsil və sosial proqramların yaradılması, Azərbaycan Milli Turizm brendinin dünya turizm bazarına təşviqinə dəstək, turizm məhsulları və servis xidmətlərinin keyfiyyətinin artırılması, turizm agentlikləri arasında sistemləşdirmə və kooperasiya mövzusunda müzakirələr aparılıb.

Sonda turizm agentliklərini, sahibkarları, həmçinin KİV təmsilçilərini maraqlandıran suallar cavablandırılıb. Turizmin inkişafı istiqamətində görülməsi planlaşdırılan işlərlə bağlı sualı cavablandıran Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov deyib ki, Azərbaycanda dövlət reyestrinə daxil olacaq turizm şirkətlərinin sığortalanması təklif olunacaq. Onun sözlərinə görə, sığortalanan şirkətlər reyestrdə sığortası olmayan şirkətlərdən üstün olacaq və bu, kateqoriyaya bölünmədə də özünü göstərəcək. Agentlik rəsmisi əlavə edib ki, turizm şirkətlərinin sığortalanması məcburi olmayacaq: **"Turist sığortalanan turizm şirkətinə daha böyük maraq göstərəcək. Bunun əsasında digər turizm şirkətləri də tədricən sığortaya önəm verəcəklər. Hazırda turizm şirkətlərinin reyestri, onların sığortalanması, sığorta fondunun yaradılması ilə bağlı işlər paralel şəkildə aparılır. Hesab edirəm ki, bu ilin sonuna qədər proses yekunlaşacaq və bir çox suallara aydınlıq gətiriləcək".**

Yeniliklərdən digər biri isə budur ki, Azərbaycanda turistlərin problemlərinin dinlənilməsi və həll edilməsinə kömək etmək üçün turizm polisi yaradılacaq. Turizm polisləri turistlərə xidmət göstərəcək şəxslər olacaqlar. Turistlər ölkədə olarkən, şəhərdə gəzərkən çətinlik çəkdiyi zaman bu xidmətlərdən istifadə edəcəklər. Həmçinin ölkədə turistlərə xidmət göstərən dövlət qurumlarının bütün xidmətlərinin vahid mərkəzdən idarə olunması üçün "Qaynar xətt"in yaradılması da nəzərdə tutulur.

Bundan başqa, Dövlət Turizm Agentliyi turizm sənayesinin formalaşdırılması, onlara dəstəyin göstərilməsi ilə bağlı Vergilər Nazirliyinə təklif paketi təqdim edib. Təkliflərdə vergilərdən azad olunma, bəzi hallarda subsidiyalara cəlb olunma, turizm şirkətləri, hotellərlə bağlı məsələlər öz əksini tapıb.

Eyni zamanda, bu ilin sonunadək Azərbaycanda fəaliyyət göstərən turizm agentliklərinin reyestri yaradılacaq. Reyestrə daxil olacaq turizm şirkətləri müəyyən kateqoriyalara bölünəcək. Daha üstün keyfiyyətlərə malik olan turizm şirkətləri daha üstün kateqoriyalar alacaqlar. Reyestrin yaradılması turizm sənayesinin inkişafı üçün tətbiq olunan mexanizmlərdən biridir. Heç bir halda turizm şirkətinin işini məhdudlaşdırmaq niyyətində olmadıqlarını deyən K.Qasımov əlavə edib ki, ölkədə turizm şirkətlərinin, turizm sənayesinin fəaliyyətinin tənzimlənməsi, onların göstərdiyi xidmət keyfiyyətinin artırılması çox vacibdir.

Dövlət Turizm Agentliyinin mətbuat xidmətinin rəhbəri Kənan Quluzadə isə bildirib ki, Azərbaycanda ulduz alan hotellərdə açıq və gizli monitorinqlər keçiriləcək. Onun sözlərinə görə, hazırda heç də bütün hotellər aldıqları ulduzlara uyğun xidmət etmir: **"Bakıda 100-dən çox hoteldə bu baxımdan problem yoxdur, ancaq regionlarda bu, var".**

K.Quluzadə əlavə edib ki, Azərbaycan Hotellər Assosiasiyası Avropanın Hotellər Assosiasiyasının üzvü olduğu üçün hotellər həmin qurumun standartlarına uyğun şəkildə ulduz alacaq. Ulduzlar verilən hotellərdə açıq və gizli monitorinq aparılacaq: **"Açıq monitorinq birbaşa fəaliyyətin yoxlanılmasından ibarətdir, həmçinin məşhur saytlar vasitəsilə qoyulan rəyləri izləyəcəyik. Gizli monitorinq zamanı isə Avropa və Azərbaycanın Hotel assosiasiyalarının mütəxəssisləri burada gizli olaraq qonaq kimi qalacaqlar, sonradan isə monitorinqin nəticələrini təqdim edəcəklər".**

**Nadir AZƏRİ**

# Şəkidə keçirilən konfransda terrorçuluqla mübarizə sahəsində görülən işlərdən ətraflı bəhs olunub





Terrorizm müasir dövrdə ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif formalarda təzahür edən, daha hədələyici miqyas alan ciddi təhdidlərdən biridir. Terror aktları insan tələfatı ilə nəticələnir, böyük insan kütlələrinə güclü psixoloji təzyiq göstərir, maddi və mənəvi dəyərləri məhv edir, dövlətlər arasında nifaq salır, müharibələrə, sosial və milli qruplar arasında inamsızlığın və nifrətin yaranmasına səbəb olur. Terrorçuluqla mübarizədə xüsusi xidmət və hüquq-mühafizə orqanları ilə yanaşı, ictimaiyyətin də yaxından iştirakı və rolu danılmazdır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu fikirlər Dövlət Təhlükəsizliyi Xidmətinin Beynəlxalq Antiterror Təlim Mərkəzinin (DTX BATM) təşkilatçılığı ilə iyunun 27-də Şəki şəhərində keçirilən "Xarici xüsusi xidmət orqanlarının ölkəmizdə həyata keçirdiyi pozuculuq fəaliyyəti" və "Terrorçuluqla mübarizədə gələcək nəslin maarifləndirilməsi" mövzularında elmi-praktik konfransda səsləndirilib.

Heydər Əliyev Mərkəzində təşkil olunmuş tədbirdə Şəki şəhər rəhbərliyi və ictimaiyyətin nümayəndələri, həmçinin gənclər və qeyri-hökumət təşkilatlarının, elm, təhsil və mədəniyyət müəssisələrinin təmsilçiləri iştirak ediblər.

Əvvəlcə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Mərkəzin qarşısındakı abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının da xatirəsi ehtiramla yad olunub.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

DTX BATM-ın rəisi Rəşad Camalov tədbiri açaraq, konfransın məqsədi barədə ətraflı məlumat verib. Terrorçuluğun doğurduğu təhlükələrə qarşı mübarizədə cəmiyyətin bütün üzvlərinin yaxından iştirakının vacibliyini vurğulayan Mərkəz rəisi regionlarda davamlı olaraq keçirilən belə konfransların əsas məqsədinin təhlükəsizlik fəaliyyətinin təmin olunmasının müxtəlif sahələri ilə bağlı vətəndaşların, xüsusilə gənc nəslin maarifləndirilməsi və bu işdə onların rolunun artırılmasından ibarət olduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, dövlətin təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edən bu məsələlər Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu gün Azərbaycanın təhlükəsizlik orqanları dövlətçilik maraqlarının və təhlükəsizliyin etibarlı qorunmasında mühüm rol oynayır. İndi müstəqil Azərbaycan dünyada ən sabit, sürətlə inkişaf edən və təhlükəsizlik mühitinə malik ölkələrdən birinə çevrilib.

Konfransda DTX-nin əməkdaşı Tural Məmmədov "Xarici xüsusi xidmət orqanlarının ölkəmizdə həyata keçirdiyi pozuculuq fəaliyyəti" mövzusunda geniş məruzə edib. Məruzəçi slaydlardan istifadə etməklə müasir dövrdə təhlükəsizliyi ciddi təhdid edən terrorizmə və radikalizmə qarşı mübarizə sahəsində DTX tərəfindən həyata keçirilən tədbirlər, həmçinin terrorizmin beynəlxalq coğrafiyası, beynəlxalq terrorçuluqla və dini ekstremizmlə mübarizə sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

Bildirilib ki, son dövrlər bəzi ölkələrdə cərəyan edən proseslər, xüsusilə münaqişə ocaqlarındakı mürəkkəb vəziyyət, mütəşəkkil cinayətkarlığın doğurduğu təhdidlər, müxtəlif radikal meyillərlə üzləşmək və sair təhlükələr hərtərəfli sayıq olmağımızı tələb edir. Gənclər dövlətin, xalqın gələcəyinin, ölkənin sabit və dinamik inkişafının onların vətənpərvərliyindən, dövlətçiliyə və müstəqilliyə sədaqətindən asılı olduğunu bir an belə unutmamalıdırlar.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası terrordan ciddi zərər çəkmiş ölkələrdən biridir. Regionun təhlükəsizliyinə və inkişafına əsas təhdid mənbəyi Ermənistan və onun yürütdüyü təcavüzkarlıq, qəsbkarlıq siyasətidir. Ermənistan tərəfindən ölkəmizə qarşı 373, o cümlədən nəqliyyat və kommunikasiya obyektlərində 32 terror aktı törədilib, 2 mindən artıq mülki şəxs ölüb və əlil olub.

Sonra məruzəçi xarici xüsusi xidmət orqanlarının informasiya toplama üsulları, onların sosial şəbəkələr vasitəsilə kəşfiyyat fəaliyyəti, dezinformasiya, separatçılıq anlayışı, erməni terrorunun acı nəticələri, terrorçuluqla mübarizə üzrə ictimai təmasların əhəmiyyəti, DTX tərəfindən respublikanın hüquq-mühafizə və digər aidiyyəti dövlət orqanları ilə birgə həyata keçirilən əməliyyat tədbirlərinin konkret nəticələri barədə geniş məlumat verib.

Konfransda DTX-nin əməkdaşı Azər Əfəndiyev "Terrorçuluqla mübarizədə gələcək nəslin maarifləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, terrorçuluq, həmçinin onun nəticələri müasir dünyanın qarşılaşdığı ciddi və daha təhlükəli problemlərdəndir.

Diqqətə çatdırılıb ki, son illər dövlətimiz tərəfindən ölkədə yeniyetmə və gənclər arasında hərbi-vətənpərvərlik hissinin, milli-mənəvi dəyərlərə bağlılığın daha da gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Lakin bu məsələdə hər bir vətəndaş ayıqsayıq olmalı, görülən işlərə fəal töhfə verməlidir. Çünki düzgün və sistemli təbliğat işinin aparılmaması cəmiyyətdə ayrı-seçkiliyə və gənclərin yanlış istiqamətdə formalaşmasına gətirib çıxara bilər.

Qeyd olunub ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyeva gənclərin vətənpərvərlik ruhunda yetişmələri, onların Vətənə və dövlətə sədaqət ruhunda tərbiyə olunmaları istiqamətində çoxsaylı proqram və layihələrin həyata keçirilməsinə daim xüsusi diqqət göstərirlər.

Çıxışlardan sonra Azərbaycanın təhlükəsizlik orqanlarının keçdiyi çətin və şərəfli inkişaf yolundan bəhs edən film nümayiş etdirilib. Filmdə istər sovet dönəmində, istərsə də müstəqillik illərində Azərbaycan təhlükəsizlik orqanlarının ölkəmizin milli maraqlarına xidmət edən qurum kimi formalaşmasında, struktur bölmələrinin təkmilləşdirilməsində, kadr potensialının azərbaycanlılaşdırılması və gücləndirilməsində Ümummilli Lider Heydər Əliyevin əvəzsiz rolu və misilsiz xidmətləri xüsusi qeyd olunub.

Diqqətə çatdırılıb ki, bu gün Prezident İlham Əliyev Ulu Öndərin siyasi kursunu yeni tələblərə uyğun olaraq uğurla davam etdirir. Dövlətimizin başçısının göstərişi ilə ölkənin milli təhlükəsizlik konsepsiyası qəbul edilib. Konsepsiya dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təzyiqlərdən qorumaq məqsədilə hazırlanıb və təhlükəsizlik sisteminin XXI əsrin tələblərinə uyğun səviyyədə inkişaf etdirilməsini nəzərdə tutur. Bu istiqamətdə lazımi hüquqi baza yaradılıb, texniki təchizat və kadr hazırlığı işi yeni tələblərə uyğun qurulub. Bu gün təhlükəsizlik sistemində dövrün tələblərinə uyğun islahatların aparılması ölkə rəhbərliyinin xüsusi nəzarətindədir.

Sonda Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov əhalinin, xüsusilə gənclərin maarifləndirilməsi baxımından belə tədbirlərin əhəmiyyətini yüksək qiymətləndirib, konfransın təşkilatçılarına minnətdarlığını bildirib.

# Respublika müşavirəsində suvarma şəraitində yeni taxıl sortları və becərmə texnologiyaları müzakirə edilib

Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm və İnnovasiya Mərkəzinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu və onun strukturuna daxil olan Tərtər Bölgə Təcrübə Stansiyasının birgə təşkilatçılığı ilə Tərtər rayonunda "Suvarma şəraitində yeni taxıl sortları, texnologiyalar və nümunəvi əkinlərin nümayişi" mövzusunda respublika müşavirəsi keçirilib.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) müvafiq elmi-tədqiqat institutlarının, Milli Aviasiya Akademiyasının alim və mütəxəssisləri, eləcə də fermerlər, kənd təsərrüfatı məhsulları istehsalçıları iştirak ediblər.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov çıxışında aqrar sahədə əldə edilən uğurlardan danışıb, taxılçılığın ərzaq təhlükəsizliyinin təmin olunması baxımından ölkə iqtisadiyyatında strateji sahələrdən biri olduğunu diqqətə çatdıraraq, müşavirənin əhəmiyyətini yüksək qiymətləndirib.

Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Cavanşir Təlai "Əkinçilik Elmi Tədqiqat İnstitutunun taxılçılığa dair tədqiqat prioritetləri və taxıl yığımını vaxtında və itkisiz başa çatdırmaq üçün qarşıda duran vəzifələr" mövzusunda çıxış edib. O, çıxışında respublikada taxıl biçininin gedişindən, yığımı vaxtında başa çatdırmaq üçün nazirlik tərəfindən həyata keçirilən əməli tədbirlərdən, taxılçılıq sahəsində aparılan elmi-tədqiqatların əsas strateji istiqamətləri və tədqiqat prioritetlərindən bəhs edib.

Müşavirədə bildirilib ki, respublikada ilk dəfə olaraq Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayevin rəhbərliyi altında ozonlaşdırma texnologiyası işlənilib hazırlanıb. Milli Aviasiya Akademiyasının təşəbbüsü ilə AMEA-nın Genetik Ehtiyatlar İnstitutunun alim və mütəxəssisləri tərəfindən ozonlaşdırmanın kənd təsərrüfatında tətbiqi əsasında taxıl istehsalının az məsrəflə və ekoloji təmiz üsullarla artırılması, məhsulun ekoloji təmiz və itkisiz saxlanılması üzrə elmi tədqiqat və sınaq işləri aparılıb, mühüm nəticələr əldə edilib. Milli Aviasiya Akademiyası ilə Əkinçilik Elmi-tədqiqat İnstitutu arasında da əməkdaşlıq müqaviləsi bağlanıb.

Diqqətə çatdırılıb ki, toxumların səpinqabağı ozonlaşdırma texnologiyası ilə işlənməsi onun ekoloji tələblərə uyğun olması, toxumların səpin keyfiyyətini yüksəltməsi və iqtisadi cəhətdən səmərəliliyinə görə alternativ texnologiyalarla müqayisədə daha effektlidir.

Tərtər Bölgə Təcrübə Stansiyasının direktoru Həqiqət Həşimova suvarma şəraiti üçün yaradılmış yeni rayonlaşmış və perspektiv buğda və arpa sortlarının, yeni resurs mühafizəedici innovativ texnologiyaların, nümunəvi əkinlərin üstünlükləri haqqında iştirakçılara məlumat verib. Bildirilib ki, əsası 1933-cü ildə qoyulmuş Tərtər Bölgə Təcrübə Stansiyasında hər il 6000-ə qədər yerli və xaricdən introduksiya edilən buğda və arpa sort nümunələri üzərində tədqiqatlar aparılır və istehsal edilən yüksək reproduksiyalı 450-500 ton elit toxumlar Kənd Təsərrüfatı Nazirliyinin bölgüsü əsasında dövlət və özəl toxumçuluq təsərrüfatlarına verilir.

Müşavirədə mövzu ilə bağlı geniş müzakirələr aparılıb, fermerlərin sualları cavablandırılıb.

Sonra iştirakçılar Bölgə Təcrübə Stansiyasının ərazisində yeni taxıl sortları, texnologiyalar və nümunəvi əkinlərlə tanış olublar.

# Bakı Slavyan Universitetində "Məzun günü" keçirilib

Bakı Slavyan Universitetində (BSU) "Məzun günü" keçirilib. Əvvəlcə BSU-nun foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil qoyulub. Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanıb.




BSU-dan qəzetimizə bildirilib ki, tədbiri rektor Nurlana Əliyeva açaraq əlamətdar gün münasibətilə məzunları və valideynləri universitetin professor-müəllim heyəti adından təbrik edib, onlara yeni nailiyyətlər arzulayıb. Ölkəmizdə dövlət tərəfindən gənclərə göstərilən diqqət və qayğıdan danışan rektor Nurlana Əliyeva Prezident İlham Əliyevin gənclər barədə verdiyi sərəncamlardan söz açıb. O, məzunları gələcək fəaliyyətlərində Bakı Slavyan Universitetinin adını uca tutmağa və müstəqil ölkəmizin tərəqqisinə töhfə verməyə çağırıb. Nurlana Əliyeva hərbi xidmətə gedəcək məzunlara Vətənin keşiyində möhkəm dayanmağı arzu edib.

Məzunları təbrik edən Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov ölkəmizdə bilikli və bacarıqlı gənclərə daim ehtiyac olduğunu diqqətə çatdırıb. O, BSU-da müasir tələblərə cavab verən ixtisaslı kadrlar hazırlanmasını və həyata keçirilən yenilikləri yüksək qiymətləndirib.

Sonra məzunlar Bakı Slavyan Universitetinin rəmzi bayrağını III kurs tələbələrinə təhvil verərək BSU məzununun Şərəf Andını və ali məktəbin himnini səsləndiriblər.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin sədri Füzuli Rzaquliyev məzunları dünyanın istənilən yerində Azərbaycanı layiqincə təmsil etməyə səsləyib. Sonra Füzuli Rzaquliyev və Veteran.az saytının redaktoru Elnur Səlimov BSU-nun rektoru, professor Nurlana Əliyevaya "Ordunun 100 illiyi" medalını təqdim ediblər.

Yüksək nailiyyətlərinə və universitetin ictimai həyatında fəal iştirakına görə fərqlənən məzunlara "Fəxri məzun" diplomları təqdim olunub.

Magistr Umuxanım Müseyibova universitetdə yaradılmış şəraitə görə rektor Nurlana Əliyevaya məzunlar adından minnətdarlığını bildirib. O, universitetdə çalışan professor-müəllim heyətinin tələbələrə göstərdikləri qayğını yüksək qiymətləndirərək bu illərin heç bir zaman unudulmayacağını deyib. BSU-dan məzun olan türkiyəli tələbə Pınar Dural çıxışında xarici tələbələrə göstərilən xoş münasibətdən, universitetdəki tolerant və multikultural mühitdən danışıb. Sonra əcnəbi tələbələr müxtəlif dillərdə məzunları təbrik edərək Azərbaycan dilində mahnılar səsləndiriblər.

Rusiyanın Azərbaycandakı səfirinin humanitar məsələlər üzrə müşaviri İqor Yeronin, professor Şahlar Əsgərov, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin sədr müavini Abbas Hüseynov çıxışlarında gənclər üzərində böyük əməyi olan valideynləri və müəllimləri təbrik edərək məzunlara uğurlar diləyiblər.

Tədbir geniş konsert proqramı ilə davam edib. Məzunlar əsgər marşı, şeir və vətənpərvər mahnılardan ibarət kompozisiya təqdim ediblər. Konsert proqramı məzunların "Əlvida, Bakı Slavyan Universiteti" mahnısı ilə başa çatıb.

Qeyd edək ki, bu il Bakı Slavyan Universitetindən bakalavriat səviyyəsi üzrə əyani təhsil alan 595, qiyabi təhsil alan 12 tələbə və magistratura səviyyəsi üzrə 115 magistr məzun olub.

**MÜŞFİQƏ**

# Azərbaycan dünyaya yeni multikulturalizm modeli təqdim edir

*Ölkəmiz həm də mədəniyyətlər arasında dialoq imkanlarının yaradılmasında aparıcı rol oynayır*



Əsrlərdir ki, tolerantlıq nümunəsi sayılan Azərbaycan həm də müasir dünyada multikulturalizmin ünvanlarından biri kimi şöhrət tapıb və sivilizasiyalararası dialoqun inkişafına mühüm töhfələr verir. Məlum olduğu kimi hazırda dünyanın bir sıra ölkələrində fərqli mədəniyyətlərin toqquşmasının nəticəsində xoşagəlməz tendensiyalar meydana çıxır. İslamofobiya, irqçilik, ksenofobiya kimi təhlükəli meyillərin bəzən süni şəkildə alovlandırılması bu cür toqquşmaları daha da dərinləşdirir, nəticədə insan haqlarının pozulması halları artır, sabitlik pozulur. Azərbaycanda isə əsrlərdən gələn multikulturalizm, tolerantlıq və qarşılıqlı hörmət mühitində sabitlik, təhlükəsizlik, insan hüquqlarının müdafiəsi təmin edilib. Bu da Azərbaycanın demokratik, tərəqqipərvər və humanist ənənələri, multikultural dəyərləri yaşadan ölkə kimi tanınmasını şərtləndirib.

### AZƏRBAYCANDA DİN-DÖVLƏT MÜNASİBƏTLƏRİ ÖLKƏMİZİN MİLLİ MARAQLARINA UYĞUN TƏNZİMLƏNİR

Qeyd olunmalıdır ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasət Prezident İlham Əliyev tərəfindən də ardıcıllıqla və uğurla davam etdirilir. Dövlət başçısının siyasi iradəsinə uyğun olaraq ölkəmizdə multikulturalizm dövlət siyasətinin ən vacib istiqamətlərindən birinə çevrilib. Vurğulamaq yerinə düşər ki, respublikamızda din-dövlət münasibətləri ölkənin milli maraqlarına uyğun tənzimlənir. Azərbaycanda əhalinin mütləq əksəriyyətini müsəlmanlar təşkil etsə də, Konstitusiyaya müvafiq surətdə din dövlətdən ayrıdır. Ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir ki, bu qurum dini icmaların fəaliyyətinin qanunun tələblərinə uyğun şəkildə qurulmasını tənzimləyir. Hazırda Azərbaycan əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Respublikamızda 940 dini qurum qeydiyyatdan keçib ki, onların 907-si islam, 33-ü isə qeyri-islam (22 xristian, 8 yəhudi, 1 krişna və 1 bəhai) təmayüllüdür. Lakin belə rəngarəngliyə baxmayaraq, ölkəmizdə müxtəlif dinlərə və mədəniyyətlərə məxsus insanlar arasında heç bir fərq qoyulmur. Deyilənlərin təsdiqi olaraq qeyd etmək yerinə düşər ki, bu gün Azərbaycanda 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Respublikamızda Pravoslav Dini-Mədəni Mərkəzi açılıb. Azərbaycanda udilərə məxsus dini abidələr yüksək səviyyədə bərpa olunaraq inanclı insanların istifadəsinə verilib. Cəmi 500 nəfərlik katolik icmasının üzvlərinə öz dini etiqadlarını qorumaları üçün hər cür şərait yaradılıb, onların toplaşdıqları kilsə sərbəst şəkildə fəaliyyət göstərir.

Bunlarla yanaşı, Azərbaycanda həm də İslam mədəniyyətinə xas maddi və mənəvi dəyərlər qorunub saxlanılır, genişləndirilir, inkişaf etdirilir. Belə ki, ölkəmizdə müxtəlif dövrlərə və mədəniyyətlərə, o cümlədən İslam mədəniyyətinə məxsus tarixi abidələr, maddi-mədəniyyət nümunələri, mənəvi irs dövlət səviyyəsində qorunur, himayə olunur. Müstəqillik illərində Azərbaycanda məscidlərin sayı artıb. Əgər sovet dövründə Azərbaycanda cəmi 17 məscid var idisə, bu gün məscidlərin sayı 2250-dir və onların 136-sı Bakıda yerləşir. Prezident İlham Əliyevin təşəbbüsü, tapşırıq və tövsiyələri ilə xalqımız üçün çox böyük dəyər kəsb edən Bibiheybət, Təzəpir, Əjdərbəy, 743-cü ildə tikilmiş Şamaxı məscidi, İmamzadə türbəsi yüksək səviyyədə təmir-bərpa işləri aparıldıqdan sonra inanclı insanların istifadəsinə verilib. 2014-cü ilin dekabrında Prezident İlham Əliyevin iştirakı ilə Bakının Binəqədi rayonunda 12 min kvadratmetr sahədə inşa olunan möhtəşəm Heydər məscidinin istifadəyə verilməsi respublikamızda dövlət-din münasibətlərinin çox yüksək səviyyədə qurulmasının daha bir ifadəsidir. Möhtəşəm Heydər məscidinin inşası Azərbaycanın gücünü, inkişaf dinamikasını əks etdirdiyi kimi, həm də dövlətimizin xalqın milli, dini dəyərlərinə nə qədər yüksək önəm verdiyini bir daha təsdiqləyir.

Azərbaycan həm də müsəlman ölkələri arasında - İslam aləmində nüfuzlu dövlət kimi tanınır. Məhz bunun qanunauyğun nəticəsidir ki, respublikamız müsəlman ölkələri ilə ikitərəfli və çoxtərəfli praqmatik əlaqələrə malikdir və münasibətlərin inkişafı, bütövlükdə, İslam coğrafiyasında həmrəyliyin təmin olunmasına xidmət edir. Mədəniyyət, humanitar sahələrdə də Azərbaycan İslam ölkələri arasında əlaqələrin genişlənməsində mühüm rol oynayır. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı, İSESCO kimi aparıcı təşkilatların fəal üzvüdür, onların nüfuzunun yüksəldilməsinə, İslam mədəniyyətinin inkişaf etdirilməsi və dünyada yayılması işinə öz dəyərli töhfələrini verir.

### AZƏRBAYCAN TƏCRÜBƏSİ BİR DAHA TƏSDİQ EDİR Kİ, MULTİKULTURALİZMİN ALTERNATİVİ YOXDUR

Azərbaycanın dünyada multikulturalizmin ünvanlarından biri kimi tanınmasına gəlincə o da xüsusi olaraq vurğulanmalıdır ki, dövlət başçısının 2014-cü il 15 may tarixli Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılıb. Bu fakt müasir Azərbaycana beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdə yaxından köməklik göstərir. Qeyd etdiyimiz kimi, dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir dövrdə Azərbaycan həm sivilizasiyalararası dialoqun təşviqi və inkişafına dəyərli töhfələr verir, həm də sabitliyi, sülhpərvər və tərəqqipərvər mövqeyi ilə nümunə kimi çıxış edir. Buna paralel olaraq ölkəmizin timsalında, sözün əsl mənasında, multikulturalizmin təntənəsi və nümunəsi müşahidə edilməkdədir. Azərbaycan təcrübəsi onu deməyə əsas verir ki, multikulturalizmin alternativi yoxdur və bu, mədəniyyətlər, sivilizasiyalararası dialoqun, xalqlararası əlaqələrin inkişafı baxımından müstəsna əhəmiyyətə malikdir.

Yeri gəlmişkən, bu il mayın 2-3-də paytaxt Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da Azərbaycanın dünyada mədəniyyətlərarası dialoqun inkişafında oynadığı rolun bariz sübutudur. Vurğulanmalıdır ki, Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Forumda 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksəksəviyyəli rəsmilərinin iştirak etməsi tədbirin önəmini göstərən mühüm faktlardan biridir. V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Qərblə İslam dünyası arasında mədəniyyətlərarası dialoqa mühüm töhfədir. Eyni zamanda, Forumda səsləndirilən fikirlər Azərbaycanın mədəniyyətlərarası dialoqda aparıcı dövlətlərdən biri olduğunu bir daha təsdiq edir. Sivilizasiyalararası dialoqun, müxtəlif mədəniyyətlər və dəyərlərə malik olan xalqların əməkdaşlığının XXI əsrin strateji prioriteti kimi vacib vəzifə olaraq qarşıda durduğu bir zamanda Azərbaycanın dünyaya belə bir mühüm platforma təqdim etməsi, ölkəmizin inkişafının, bu sahədə qazandığı nailiyyətlərin göstəricisidir. Qürurverici haldır ki, tolerantlıq nümunəsi olan, dünyaya mütərəqqi dəyərlər təqdim edən Azərbaycan mədəniyyətlər arasında dialoq imkanlarının yaradılmasında aparıcı və müsbət rol oynayır. V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söyləyən Prezident İlham Əliyev deyib: **"Həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa təsisatlarına eyni zamanda üzv olan nadir ölkələrdən biri olan Azərbaycan təmasların qurulması və dialoq üçün imkanların yaradılmasında özünün təbii və əminəm ki, müsbət rolunu oynayır. Bizim dialoqa ehtiyacımız var. Mədəniyyət və dinlərarası münasibətlər, siyasi gündəlik, iqtisadi əməkdaşlıq və təhlükəsizlik məsələlərində dialoq zəruridir. Forumun adı belə dialoq adlanır. Yəni, biz məhz bunu dünyaya təqdim edirik və bu təşəbbüs geniş beynəlxalq dəstəyə malikdir".**

### AZƏRBAYCANDA MULTİKULTURALİZMİN HƏM DÖVLƏT SİYASƏTİ, HƏM DƏ CƏMİYYƏTDƏ HƏYAT TƏRZİ OLMASI BEYNƏLXALQ MİQYASDA DA YÜKSƏK QİYMƏTLƏNDİRİLİR

Bəli, Azərbaycan beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim etməkdədir. Qeyd etdiyimiz kimi, dünyada sivilizasiyalararası qarşıdurmaların, müxtəlif humanitar böhranların, dini və milli-etnik müstəvidə kataklizmlərin yaşandığı bir dövrdə Azərbaycan həm sivilizasiyalararası dialoqun təşviqi və inkişafına dəyərli töhfələr verir, həm də sabitliyi, sülhpərvər və tərəqqipərvər mövqeyi ilə nümunə kimi çıxış edir. Buna paralel olaraq ölkəmizin timsalında, sözün əsl mənasında, multikulturalizmin təntənəsi və nümunəsi müşahidə edilməkdədir. Azərbaycan təcrübəsi onu deməyə əsas verir ki, multikulturalizmin alternativi yoxdur və bu, mədəniyyətlər, sivilizasiyalararası dialoqun, xalqlararası əlaqələrin inkişafı baxımından müstəsna əhəmiyyətə malikdir. Prezident İlham Əliyev Forumda çıxışı zamanı **"Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar",** - deyə diqqətə çatdırıb.

O da qeyd edilməlidir ki, ölkəmizdə multikulturalizmin həm dövlət siyasəti, həm də cəmiyyətdə həyat tərzi olması beynəlxalq miqyasda da olduqca yüksək qiymətləndirilir. Ümumiyyətlə, Azərbaycan elə bir ölkədir ki, burada milli, dini, irqi müxtəliflik insanlar arasında fərq yaradan, kimlərəsə üstünlük verən amil kimi çıxış etmir. Əksinə, burada tolerantlıq, milli, dini, irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur. Azərbaycanda xalqların, milli və dini icmaların heç bir fərq qoyulmadan bərabər yaşamasına, sıx inteqrasiya etməsinə həm dövlət güclü siyasi iradə nümayiş etdirir, həm də cəmiyyətdə buna böyük istək var. Təsadüfi deyil ki, bu gün ölkəmizdə mövcud olan milli həmrəylik, sabitlik və tolerantlıq mühiti məhz bu dəyərlərə əsaslanır.

**Pərviz SADAYOĞLU**

**"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün"**

---

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

# Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır

*Bu ilin ötən dövründə 463 sahibkarın ümumi dəyəri 175,7 milyon manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə 46 milyon manat güzəştli kredit verilib*




**(əvvəli ötən sayımızda)**

Sahibkarlara istənilən yerdən təlimə birbaşa qoşulmaları, təlimi canlı rejimdə izləmələri üçün KOBİA və Agentliyin ölkənin 13 şəhər və rayonunda fəaliyyət göstərən KOB dostları tərəfindən lazımi dəstək göstərilib.

Qeyd edək ki, onlayn tədbir barədə sahibkarlar İqtisadiyyat Nazirliyinin www.economy.gov.az və KOBİA-nın www.smb.gov.az saytları, "Facebook" səhifələri, eləcə də KİV vasitəsilə əvvəlcədən məlumatlandırılıblar.

KOBİA sahibkarlardan daxil olan müraciətləri nəzərə almaqla mütəmadi olaraq onlayn maarifləndirmə tədbirləri təşkil edir. İndiyədək vergi, gömrük, qida təhlükəsizliyi və maliyyə resurslarına çıxış imkanlarına həsr edilmiş onlayn maarifləndirici tədbirlərdən 1500-dən çox sahibkar yararlanıb.

Bundan əlavə, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yanında İctimai Şuranın təşkilatçılığı ilə iqtisadiyyatın müxtəlif sektorlarında fəaliyyət göstərən kiçik və orta biznes (KOB) subyektlərinin, müvafiq dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə mütəmadi olaraq üçtərəfli formatda müzakirələr də təşkil edilir. Növbəti belə forum "Təhsil biznesi sektoru: mövcud vəziyyət və perspektivlər" mövzusuna həsr olunub. Tədbirdə təhsil sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektləri, eləcə də Təhsil, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Peşə Təhsili üzrə Dövlət Agentliyinin, Milli Elmlər Akademiyasının və müxtəlif qeyri-hökumət təşkilatlarının nümayəndələri, millət vəkilləri, KOBİA yanında İctimai Şuranın üzvləri iştirak ediblər.

Forumda təhsil sahəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olan KOB-ların fəaliyyəti, sektorun inkişaf potensialı, bu sahədə ictimai şuraların və vətəndaş cəmiyyəti institutlarının rolu, dövlət-özəl əməkdaşlığı müzakirə edilib. Tədbirdə təhsilin insan kapitalının inkişafında mühüm rol oynadığı vurğulanıb, ixtisaslı mütəxəssislərin hazırlanması üçün təhsilin bütün mərhələlərində keyfiyyətin davamlı olaraq yüksəldilməsinə, peşə təhsili sisteminin KOB-ların ehtiyaclarına uyğun qurulmasına, KOB subyektləri üçün "ömür boyu öyrənmək" imkanlarının təmin edilməsinə, təhsildə dövlət-özəl tərəfdaşlığına dair müzakirələr aparılıb, təhsil sektoruna investisiya qoyuluşu, təhsil müəssisələrində innovativ strukturların yaradılması və digər təkliflər səsləndirilib.

Forumda çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlığın qurulmasının Agentliyin əsas fəaliyyət istiqamətlərindən olduğunu bildirib. KOBİA-nın fəaliyyətinin bir sıra istiqamətlərdə elm və tədris mərkəzləri ilə qarşılıqlı fəaliyyətə əsaslandığını qeyd edən Orxan Məmmədov təhsil sahəsində əməkdaşlığa dair təkliflər səsləndirib. Qeyd olunub ki, Agentlik KOB subyektlərinin dəstəklənməsinə yönəldilmiş modellər və mexanizmlərin hazırlanmasında təhsil sektorunda fəaliyyət göstərən KOB-ların potensialından da faydalanmaqda maraqlıdır. Hazırda yaradılması istiqamətində tədbirlər görülən və Agentliyin strukturuna daxil olan kiçik və orta biznesin inkişafı mərkəzlərini (KOB İnkişaf Mərkəzi) özəl təhsil müəssisələrinin iştirakı ilə formalaşdırmaq mümkündür və bu istiqamətdə Agentlik təkliflərə açıqdır. Sahibkarların bilik və bacarıqlarının artırılması istiqamətində müxtəlif mövzular üzrə təlimlərin təşkil edilməsi Agentliyin vəzifələri sırasındadır və bu sahədə təhsil biznesi sektorunda çalışan müəssisələrlə əməkdaşlıq oluna bilər. Hazırda Agentlik tərəfindən "KOB kadr bankı"nın yaradılması istiqamətində işlərə başlanıb və inanırıq ki, bu sistem təhsil müəssisələri üçün faydalı platforma olacaqdır. Agentlik dövlət başçısının müvafiq Fərmanı ilə təsdiq edilmiş "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin rəqabətqabiliyyətli istehsalının stimullaşdırılması məqsədilə daxili bazar araşdırmalarına dövlət dəstəyi göstərilməsi Qaydası" çərçivəsində də təhsil sektorunda fəaliyyət göstərən özəl qurumlarla əməkdaşlıq edə bilər.

Təhsil nazirinin müavini Firudin Qurbanov ölkəmizdə təhsilin inkişafı, bu sahədə görülən işlər, özəl təhsil müəssisələrinin fəaliyyəti barədə danışıb, ölkə qanunvericiliyinin təhsilin istənilən pilləsində özəl təhsil müəssisələrinin yaradılmasına və bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa imkan verdiyini qeyd edib.

KOBİA yanında İctimai Şuranın sədri Fərhad Qaraşov forumun keçirilməsi məqsədi, KOBİA yanında İctimai Şuranın fəaliyyəti barədə məlumat verib, KOB-ların fəaliyyət göstərdiyi müxtəlif sahələrdə belə formatda tədbirlərin mütəmadi olaraq keçiriləcəyini bildirib.

KOBİA-nın İdarə Heyəti sədrinin müavini Nadir Adilov təhsil sahəsində fəaliyyət göstərən sahibkarlarla daha sıx və səmərəli əməkdaşlıq üçün forumun əhəmiyyətli platforma olduğunu vurğulayıb, tədbirdə Agentlik yanında İctimai Şura üzvləri və qeyri-hökumət təşkilatları tərəfindən səsləndirilən fikirlərin, rəy və təkliflərinin nəzərə alınacağını və aidiyyəti üzrə təqdim olunacağını qeyd edib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı" çərçivəsində 18 sahibkar və menecerdən ibarət daha bir qrupun təlim və istehsalat təcrübəsi keçmək üçün Almaniyaya getməsi də sahibkarlar üçün əhəmiyyətlidir. Turizm, nəqliyyat, inşaat, İKT və iqtisadiyyatın digər sahələrində fəaliyyət göstərən sahibkar və menecerlər 11 iyun-6 iyul tarixlərini əhatə edən ixtisasartırma kursu müddətində Almaniyanın Heydelberq şəhərində yerləşən "AHP-International" Tədris Mərkəzində təlim, müvafiq müəssisələrdə istehsalat təcrübəsi keçəcəklər. Bundan başqa, sahibkar və menecerlərin işgüzar əlaqələrinin qurulması və genişləndirilməsi üçün müxtəlif alman şirkətləri ilə görüşlərinin təşkili də nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, "Azərbaycanın biznes ictimaiyyətində menecerlərin ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı" çərçivəsində indiyədək 400-dən çox sahibkar və menecer Almaniyada ixtisasartırma kursu keçib.

Ölkə sahibkarlarının fəaliyyətinin təbliği baxımından 21-23 iyun tarixlərində Dənizkənarı Milli Parkda keçirilən "Organic Food Festival 2019" tədbiri də ictimaiyyətdə maraqla qarşılanıb. Azərbaycanda ilk dəfə olaraq keçirilən və "Made in Azerbaijan" brendini təşviq etmək, ölkəmizdə yerli və xarici ekoloji təmiz qida məhsulları istehsalçılarını tanıtmaq məqsədilə təşkil olunmuş festivala üç gün ərzində 10 mindən çox ziyarətçi qatılıb. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Dövlət Aqrar Ticarət Şirkəti və "Proaktiv" PR Agentliyinin təşkilatçılığı ilə keçirilmiş festivalda 50-dən çox şirkətin, o cümlədən mikro və kiçik sahibkarların 150-yə yaxın məhsul və xidmətləri təqdim olunub.

KOBİA-nın dəstəyi ilə mikro və kiçik sahibkarlar festivalda onlar üçün ayrılmış xüsusi stenddə ekoloji təmiz qida məhsullarını - bal, bitki çayları, meyvə şirələri, müxtəlif bitki yağları, ev üsulu ilə hazırlanmış şirniyyatlar, ədviyyat, düyü, meyvə quruları və s. məhsulları, eləcə də orqanik qablaşdırma materiallarını, sosial sahibkarlıq layihələrini təqdim ediblər.

Növbəti "Organic Food Festival"ın 2020-ci ilin iyun ayında keçirilməsi nəzərdə tutulur.

Məlumat üçün qeyd edək ki, KOBİA 2018-ci ildən etibarən startapların, mikro və kiçik sahibkarların öz məhsul və xidmətlərini müxtəlif sərgi, yarmarka və festivallarda təqdim etməsinə, bu tədbirlər çərçivəsində onların əməkdaşlıq əlaqələrinin qurulmasına və genişləndirilməsinə dəstək göstərir. Bu dəstək 2019-cu ildə ölkəmizdə keçiriləcək müxtəlif sərgi, yarmarka və festivallar çərçivəsində davam etdiriləcək.

Azərbaycanda sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi qadın sahibkarlığının inkişafına da müsbət təsirini göstərməkdədir. Azərbaycanda qadınlar sahibkarlığın inkişafında mühüm rol oynayır və biznes fəaliyyəti ilə fəal şəkildə məşğul olurlar. Ölkə üzrə qeydiyyatdan keçmiş fərdi sahibkarların təqribən 20%-ni qadınlar təşkil edir. Regionlarda qadınların maliyyə savadlılığının artırılması və maliyyə idarəetmə davranışlarının inkişaf etdirilməsi, onların biznesə başlamaq və inkişaf etdirmək üçün potensialının artırılması diqqət mərkəzindədir. Bu barədə Bakıda keçirilmiş Qadın sahibkarlığın inkişafına dair Beynəlxalq Forumda Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib. Ölkəmizdə qadın sahibkarlığının inkişaf etdirilməsinin KOBİA-nın qarşısında duran prioritet məsələlərdən olduğunu qeyd edən Agentlik rəhbəri kiçik və orta sahibkarlar arasında qadınların sayının daha da artırılması və bu məqsədlə müvafiq dəstək mexanizmlərinin yaradılması, qadın sahibkarlığının inkişafının təşviq edilməsi istiqamətində zəruri tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, qadın sahibkarlığının inkişafı tədbirləri onlarla sıx əməkdaşlıq şəraitində, bu məqsədlə yaradılmış dövlət-sahibkar əməkdaşlığı platformaları əsasında həyata keçirilir. Bu baxımdan, Agentliyin yanında yaradılmış və sahibkarların ictimai birliklərinin təmsil olunduğu İctimai Şuranın imkanlarından geniş istifadə edilir. Agentliyin yanında fəaliyyət göstərən İctimai Şurada həmçinin Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası da təmsil olunur.

Qadın sahibkarlığının inkişafı məqsədilə layihə və proqramlar hazırlanan zaman xüsusilə kənd yerlərində qadın məşğulluğu məsələsi diqqət mərkəzində olmalıdır və bu yerlərdə qadın məşğulluğunun daha perspektivli istiqamətləri müəyyənləşdirilməli və müvafiq tədbirlər görülməlidir. Qadın sahibkarlığının inkişafının dəstəklənməsinin təşkilati modellərinin, o cümlədən biznes inkubatorların yaradılması da Agentlik tərəfindən dəstəklənəcək.

**Nardar BAYRAMLI**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# Azərbaycanda ənənəvi və ixrac potensialı yüksək sahələrin inkişafı istiqamətində davamlı tədbirlər görülür

*Regionlarda meyvəçiliklə yanaşı, digər bağçılıq sahələri də inkişaf etdirilir*









Məlum olduğu kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkəmizdə iqtisadiyyatın digər sahələri kimi, aqrar sahə də öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Daha dəqiq desək, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının hərtərəfli və sürətli inkişafını nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən çox böyük dəstək tədbirləri həyata keçirilir. Prezident İlham Əliyev tərəfindən ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, torpaq və su resurslarından səmərəli istifadə ilə bağlı qarşıya çox mühüm tapşırıqlar qoyulub. Resurslardan səmərəli istifadə və innovativ texnologiyaların geniş tətbiqi ilə bu sahədə məhsuldarlıq daha da artırılmalıdır. Aqrar siyasətin əsasını ərzaq təhlükəsizliyinin təmin edilməsi, bu sahədə məşğulluğun genişlənməsi və ixracın artırılması təşkil edir. Eyni zamanda ölkəmizdə ənənəvi və ixrac potensialı yüksək sahələrin inkişafı istiqamətində davamlı tədbirlər görülür.

Onu da vurğulamaq gərəkdir ki, meyvəçilik aqrar sahənin prioritet istiqamətlərindən biridir. Azərbaycanın iqlim şəraiti məhsuldarlıq üçün münbit şərait yaradır. Eyni zamanda meyvəçilik, o cümlədən sitrus meyvəçiliyi və çaycılıq ölkəyə valyuta axınına imkan verən, məşğulluğu təmin edən, ixracyönümlü sahələrdəndir. Sitrus meyvəçiliyinin və çaycılığın inkişafı ilə bağlı qəbul edilən Dövlət proqramlarında konkret hədəflər müəyyən edilib. Proqramların əsas məqsədi bu sahədə daha yüksək inkişafa, məhsuldarlığı artırmağa nail olmaqdır. Bu hədəflərə çatmaq üçün həyata keçirilən mühüm məqsədyönlü tədbirlər aqrar sahənin dinamik və dayanıqlı inkişafını təmin edir.

Yeri gəlmişkən, kənd təsərrüfatında məhsul bolluğuna nail olmaq üçün qarşıya qoyulan məqsədlər sırasında meyvəçiliklə yanaşı, bağçılığın da inkişafı diqqət mərkəzindədir. Bu istiqamətdə reallaşdırılan məqsədyönlü tədbirlərə uyğun olaraq cəbhə bölgəsində yerləşən Tərtər rayonunda aqrar sektorun digər sahələri ilə yanaşı, bağçılıq da inkişaf etdirilir, ixracyönümlü müasir təsərrüfatlar yaradılır. Məsələn, rayonun Xoruzlu kəndində "Aqropat" MMC tərəfindən intensiv meyvə bağlarının salınmasında məqsəd xarici bazarlara çıxarmaq üçün rəqabət qabiliyyətli məhsul istehsal etməkdir.

"Aqropat" MMC-nin direktoru Elçin Maqsudov bildirib ki, bağçılıq təsərrüfatının yaradılmasında İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən də istifadə edilib. Bağlarda 2018-ci ildə və bu il, ümumilikdə, 128 hektarda İspaniya və Türkiyədən gətirilmiş 200 min ədədə yaxın yüksək məhsuldar meyvə tingi əkilib. Burada almanın 7, armudun 3, gilasın və əriyin 5, gavalının 2 sortu, həmçinin alça, nar, xurma və badam ağacları müasir texnologiyalar əsasında becərilir. Bu meyvə tingləri əkildikdən 1-2 il sonra bar verməyə başlayır, 4-5 ildən sonra isə ən yüksək məhsuldarlığa çatır. Artıq ötən il əkilmiş ağaclar ilk barını verib və hazırda məhsul yığımı aparılır.

Sözügedən bağların salınmasında xaricdən dəvət olunmuş mütəxəssislərdən məsləhət alınıb, rayonun beş illik iqlim şəraiti nəzərdən keçirilib. Araşdırmalar nəticəsində Tərtər rayonunda intensiv bağçılığın inkişaf etdirilməsi üçün müvafiq iqlim şəraitinin, həmçinin məhsuldar torpaqların mövcud olduğu qənaətinə gəlinib. Müqaviləyə əsasən tinglərin alındığı şirkətlər beş il ərzində ağaclara nəzarət edəcəklər.

Meyvə ağaclarının küləkdən qorunması üçün bağların kənarlarında 12 min şam ağacı əkilib. Təsərrüfatda yollara asfalt örtük salınıb, bağların daxilindəki yollar çınqıl tökülərək hamarlanıb. Suvarma suyu ilə təmin olunması üçün 45 min və 21 min kubmetr tutumu olan iki su anbarı inşa edilib. Tərtərçaydan anbarlara vurulan su motorlar vasitəsilə filtrlərə, sonra isə bağa ötürülür. Bağda ağacların suvarılması mərkəzləşdirilmiş qaydada elektron sistemlə damlama üsulu ilə həyata keçirilir.

Hazırda bağçılıq təsərrüfatında meyvə yığımı ilə yanaşı, ağaclara aqrotexniki qulluq edilir. Aqronom Elnur Müseyibli KİV-ə açıqlamasında deyib ki, bağda alaqdan təmizləmə, budama, meyvələri çox olan ağaclarda seyrəltmə işləri aparılır, əsas budaqlar dirəklərə bağlanılır. Ağacların suvarılmasının damlama üsulu ilə həyata keçirilməsi onların inkişafını və məhsuldarlığını artırır.

Tərtər rayonunda yaradılan intensiv bağçılıq təsərrüfatında 70 nəfər daimi, 100 nəfərdən çox sakin isə mövsümi işlərə cəlb olunub. Təsərrüfatda işlə təmin olunan sakinlərdən biri də Gülüstan Bağırovadır. **"İki ildir bağçılıq təsərrüfatında işlə təmin olunmuşam. Bağın salınmasında, ağacların becərilməsində iştirak etmişəm. Artıq zəhmətimizin bəhrəsini görürük. Bağda ilk məhsul yığımını aparırıq. Məhsulumuz boldur, meyvələr gözəldir. İşimdən də çox razıyam",** - deyə G.Bağırova bildirib.

Ölkənin subtropik regionu Lənkəran rayonunda isə sitrusçuluq, çayçılıqla yanaşı, digər bağçılıq sahələri də inkişaf etdirilir. Bir neçə gündür rayonun meyvə bağlarında məhsul yığımına başlanılıb. Lənkəran rayonunun Bürcəli kəndində Avropa ölkələrindən gətirilərək 52 hektar sahədə əkilən meyvə ağaclarında bu il də məhsul boldur. Ümumi sahənin 30 hektarı nektarin və şaftalı ağacları olan bağlarda bir neçə gündür sözügedən meyvələrin, eyni zamanda, əriyin yığımı aparılır. Bu günədək 1 tonu ərik olmaqla 15 tonadək məhsul tədarük edilib. Məhsul, demək olar ki, hər gün toplanır. Bağ sahibləri deyir ki, martda çiçəkləmə dövründə intensiv yağışlar tozlanmaya bir qədər təsir etsə də, aparılan müvafiq tədbirlər öz müsbət nəticəsini göstərib. Bundan başqa, ilboyu lazımi aqrotexniki qulluq göstərilən bağda biokimyəvi üsullarla xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirləri görülüb. Meyvənin növündən asılı olaraq bir ağacdan orta hesabla 120-130 kiloqram məhsul yığılır.

Təsərrüfat sahibləri bol və keyfiyyətli məhsul əldə etmək üçün qulluq, yığım proseslərində mütəxəssis məsləhətlərindən də yararlanırlar. Bağlardan toplanan məhsul təsərrüfatın anbarında saf-çürük edilir, tarlalara düzülərək soyuducu anbara yığılır. Daxili bazarda kifayət qədər tələbat olduğundan alıcılar əsasən yerli tədarükçülərdir. Tədarük olunan meyvələr paytaxt və digər regionların bazarlarında satışa çıxarılır.

Bu il daha 2 hektar sahədə müasir texnologiyalar əsasında məhsuldar meyvə tingləri əkilib, yeni bağ salınıb. Bir neçə gündən sonra isə təsərrüfatda gilas yığımına başlanacaq. Daha sonra gavalı, armud, heyvanın yığım dövrü olacaq. Bu mövsüm bağlardan 150 tondan çox meyvə tədarükü gözlənilir.

Neftçalanın meyvə bağlarında da artıq məhsul tədarükünə başlanılıb. Ötən il çoxillik meyvə bağlarından 1849 ton məhsul tədarük edən bağbanlar cari ildə də bağlardan bol məhsul götürmək üçün meyvə ağaclarına nümunəvi qulluq göstərib, qurumuş, məhsuldarlığı aşağı olan ağaclar yeni tinglərlə əvəz olunub. Bunun nəticəsində də bağlarda bol məhsul yetişib.

Rayon statistika idarəsindən bildirilib ki, artıq neftçalalı bağbanlar yetişdirdikləri məhsulun yığımına başlayıblar. Qısa müddətdə bağlardan 14 ton məhsul götürülüb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,3 dəfə çoxdur. Meyvənin 2 tonu 6,5 hektarı albalı, 12 tonu isə 27 hektar alça sahəsindən toplanıb.

Qeyd edək ki, hazırda Neftçalada 591,7 hektar meyvə bağı var ki, bunun da 98 faizdən çoxu bar verəndir.

Şimal regionunda üzümçülüyün daha çox inkişaf etdiyi Şabranda təsərrüfatçılar bu il məhsuldarlığın yüksək olduğunu bildirirlər. Şabranda daha çox ağ və qara şanı, "Ağadayı", "Mədrəsə", "Təbrizi" kimi yerli üzüm sortları becərilir. Son illər salınan yeni bağlarda isə texniki üzüm sortları yetişdirilir. Şabranlı fermerlər toplanan məhsulu Bakıda və respublikamızın digər bölgələrindəki satış mərkəzlərinə göndərirlər. Rayonun Ağbaş kəndində fərdi sahibkara məxsus 140 hektaradək sahədə üzümün 10-dan çox sortu becərilir. İntensiv formada qulluq olunan üzümçülük təsərrüfatında şərabçılıq üçün vacib texniki üzüm sortlarına üstünlük verilib.

Rayonun təcrübəli üzümçülərindən olan Polad Quliyev bu il də məhsuldarlığın yüksək olacağına əmindir. Təsərrüfatçılar avqust ayında üzüm bağlarından ilk məhsulun toplanmasına başlayacaqlar. Hazırda sahələrdə budama və digər aqrotexniki işlər görülür. Budama zamanı tənəklər gücdən düşmüş bar çubuqlarından təmizlənir. Yaşıl budama 1 ay davam edəcək. P.Quliyev bildirir ki, ziyanvericilərə və xəstəliklərə qarşı vaxtında aparılan tədbirlər və aqrotexniki qulluq öz müsbət təsirini göstərib. Məhsuldarlıq yüksəkdir. Ötən il üzümçülük təsərrüfatından 800 tonadək məhsul əldə olunub. Fermerlər cari ildə məhsuldarlığın həmin göstəricidən daha çox olacağını proqnozlaşdırırlar.

Rayonun Gəndov, Ağbaş və Dəvəçikənd inzibati ərazi dairəsinə daxil olan kəndlərində üzümçülük daha geniş yayılıb. Şabran ərazisində, ümumilikdə, 400 hektaradək üzüm bağı var.

Zaqatala rayonunda isə ənənəvi və ixrac potensialı yüksək sahələrdən biri də gülçülükdür. Son illər rayonda digər sahələrlə yanaşı, gülçülüyün inkişaf etdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir. Ötən il rayonun Aşağı Tala kəndində "AzRose" MMC-nin qızılgül yağı istehsalı müəssisəsinin fəaliyyətə başlaması "Qızılgüllər diyarı" kimi tanınan Zaqatalada gülçülüyün əvvəlki şöhrətinin bərpa edilməsinə öz töhfəsini verməkdədir.

"AzRose" MMC-dən bildirilib ki, bu il yaz mövsümündə müəssisənin ərazisində 20 hektarda yeni qızılgül plantasiyası salınaraq cəmiyyətə məxsus plantasiyaların ümumi sahəsi 181 hektara çatdırılıb. Plantasiyaların 144,8 hektarında "Dəməşq qızılgülü", 36,2 hektarda isə "Lavanda" gülü əkilib. Bundan əlavə, cari ildə sınaq məqsədilə 0,5 hektar sahədə nanə plantasiyası da salınıb. Nəticə yaxşı olarsa, payızda nanə plantasiyasının sahəsinin 3 hektara çatdırılması nəzərdə tutulur.

Yaz aylarında "AzRose" MMC-yə məxsus 125 hektar bar verən qızılgül plantasiyasından 280 ton gül ləçəyi toplanıb. Bundan əlavə, 36 hektaradək bar verən "Lavanda" gülü plantasiyasından indiyədək 14 ton gül ləçəyi tədarük olunub və hazırda gül yığımı davam edir.

Xatırladaq ki, 2018-ci ildə "AzRose" MMC-nin 64 hektar barverən qızılgül plantasiyasından 120 ton 787 kiloqram qızılgül ləçəyi, 35 hektar "Lavanda" plantasiyasından isə 22 ton 663 kiloqram lavanda gülü yığılıb. Tədarük edilən yaş gül ləçəklərindən 38 litr qızılgül və 290 litr lavanda yağı istehsal olunub.

**Qaşqay RAMAZANOV**

# Misir universitetlərinin tələbələri Azərbaycan dilinə böyük maraq göstərirlər



Misirdəki Azərbaycan diasporu mərkəzində Azərbaycan dilini öyrənmək istəyən tələbələr üçün yeni qrup yaradılıb.

AZƏRTAC xəbər verir ki, Qahirədəki Azərbaycan diasporu mərkəzində keçirilən tədbirdə "Vətənpərvər" Azərbaycan Diaspor Təşkilatları Birliyinin sədri, tədqiqatçı alim Seymur Nəsirov ölkələrimiz arasındakı tarixi əlaqələrdən, Azərbaycanın mədəniyyətindən, incəsənətindən və turizm potensialından geniş söhbət açıb. O, həmçinin Azərbaycan dilinin öyrənilməsinin əhəmiyyətindən, onun mənimsənilməsinin qısa yollarından və ərəb dilindən alınma sözlərdən bəhs edib. S.Nəsirov dilimizdə ərəb dilindən alınma sözlərin sayının altı mindən çox olduğunu xüsusi vurğulayıb.

Sonda tələbələrin sualları cavablandırılıb.

Qeyd edək ki, Misirin müxtəlif universitetlərindən olan 50-dən çox tələbə Azərbaycan dilini öyrənmək üçün Qahirədəki diaspor mərkəzinə müraciət edib. İyunun 22-də onlar üçün yeni qrup yaradılıb. Tələbələrə həftədə iki dəfə ödənişsiz dil dərsləri ilə yanaşı, ölkəmizin mədəniyyəti və tarixi də tədris olunur. Hazırda mərkəzdə 19 ölkədən 230-dan çox tələbəyə Azərbaycan dili əsas olmaqla, müxtəlif fənlər ödənişsiz tədris olunur.

Qeyd edək ki, S.Nəsirov üç ildir Qahirə Universitetində Azərbaycan dilini tədris edir. Qahirədəki Diaspor Mərkəzinin tələbələri artıq Azərbaycan dilindən ərəb dilinə tərcümə də edə bilirlər.

# Azercell-in dəstəyi ilə keçirilən "Seedstars Baku 2019" müsabiqəsinin qalibi bəlli olub




"Azercell Telekom" MMC-nin dəstəyi və Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin təşkilatçılığı ilə 15-16 iyun tarixlərində startaplar arasında keçirilən "Seedstars World" müsabiqəsinin yerli seçimləri baş tutub. "Hyatt Regency" otelində təşkil olunan yarışmada münsiflər heyəti qarşısında öz layihələrini təqdim etmək üçün dəvət olunan 7 startap sırasından "Wexplain" qalib seçilib.

Məlumat üçün bildirək ki, "Wexplain" qərarlar qəbul olunması və ya məlumat mübadiləsi üçün toplantı təşkil etmək ehtiyacını azaldacaq yeni qurulmuş onlayn bir platformadır. Təklif etdiyi innovativ və davamlı həll sayəsində qalib gəlməyə müvəffəq olan bu startap Azərbaycanı 2019-cu ilin dekabr ayında Qazaxıstanda keçiriləcək "Seedstars CEE" regional sammitində təmsil etməklə yanaşı, bütün xərclər qarşılanmaqla, 2020-ci ilin aprel ayında İsveçrədə baş tutacaq "Seedstars World" yarışmasına qatılmaq, bununla da, "Seedstars Global Winner" adı və 500 000 ABŞ dolları dəyərində sərmayə yatırımı qazanmaq uğrunda mübarizə aparacaq.

Tibb elmləri sahəsində araşdırmalarla məşğul olan şəxslər üçün dərmanların təftiş məlumatlarını strukturlaşmış formaya salaraq, statistikanın aparılmasında yardımçı olan tətbiq təklif edən "APDVoice" müsabiqədə ikinci yerə layiq görülüb. Əşyaların İnterneti (IoT) texnologiyasına əsaslanan ağıllı tullantı toplanması sistemini təklif edən "WASCO" startapı isə üçüncü pillədə qərarlaşıb. Məlumat üçün bildirək ki, "Eleven Kings", "Owbike", "Real English" və "Senmur" yarışa dəvət olunan startaplar sırasında olub.

Qeyd edək ki, "Seedstars" inkişaf etməkdə olan ölkələrdə regional məsələlərin həllini hədəfləyən, onların regional bizneslərinə və inkişafına dəstək vermək məqsədilə qlobal bazar üçün gəlirli və davamlı məhsullar hazırlayan bacarıqlı startaplar axtarışındadır. "Azercell Telekom" MMC və PAŞA Bankın dəstəyi ilə informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən layihələrin, yaranmaqda olan startapların müstəqil şirkət kimi inkişaf etməsinə kömək edən Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi artıq 7 ildir ki, "Seedstars Baku" müsabiqəsinin yerli təşkilatçısı qismində çıxış edir.

# "Nar" bir sıra hərbi hissədə mobil danışıq nöqtəsi yaradıb







26 İyun - Azərbaycan Respublikası Silahlı Qüvvələr Günü münasibətilə "Nar" növbəti uğurlu layihəsini icra edib. Belə ki, mobil operator Müdafiə Nazirliyinin dəstəyi ilə cəbhəyani zonada yerləşən bir sıra hərbi hissələrdə "Nar" danışıq nöqtəsi yaradıb. Məqsəd əsgərlərimizin öz yaxınları, doğmaları ilə daha yaxın olmaları və mütamadi təmas qurmalarına dəstək olmaqdır. Hərbi hissələrdə yaradılan "Nar" danışıq nöqtəsində əsgərlər istədikləri qədər öz yaxınları ilə danışa biləcəklər.

Qeyd edək ki, bayram günü mobil operator vətən keşiyində duran əsgərlərimizi sevindirmək, onlara olan hörmətini bildirmək məqsədilə, cəbhə bölgəsində yerləşən "N" saylı hərbi hissəyə səfər edib və Azərbaycan Ordusunun əsgərləri ilə görüşüb. Bundan başqa, hərbi hissələrə əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün müxtəlif hədiyyələr də təqdim edilib.

Əsgərlərlə görüşü zamanı "Nar"-ın İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Əziz Axundov bildirib ki, artıq ikinci ildir ki, mobil operator Müdafiə Nazirliyi ilə birgə uğurlu layihəsini icra edir: **"Silahlı Qüvvələr Günündə əsgərlərlə birgə olmaq bizim üçün qürurvericidir. Ötən il sərhədyanı bölgədə xidmət edən 100-ə qədər əsgərin bayramı öz valideyni ilə birgə qeyd etməsində yaxından iştirak etdik. Bu il isə 100-lərlə hərbçinin doğmaları ilə sərhədsiz ünsiyyət qurmaları üçün "Nar" danışıq nöqtələri yaratdıq. Vətənə bağlılıq kimi ümdə vəzifələrə hər zaman həssas yanaşan "Nar", əsgərlərimizə hər hansı mənəvi dəstək göstrəməyi özünə borc bilir. Bu şərəfli yolda xidmət edən əsgərlərimizə yaxınları ilə öz sevinclərini və xoş xəbərlərini bölüşməsini arzulayırıq".**

Qeyd edək ki, "Nar" ötən ilin martında Müdafiə Nazirliyi ilə birlikdə ölkəmizin müxtəlif bölgələrindən 100-dən çox valideynin cəbhə bölgəsində yerləşən "N" saylı hərbi hissədə əsgərlərlə görüşünü təşkil edilmişdi. Müdafiə Nazirliyinin dəstəyi ilə həyata keçirilən bu bayram görüşü nəticəsində valideynlər cəbhədə xidmət göstərən övladları ilə bərabər Novruz bayramını qeyd etmişdi.

Vətənə bağlılığın təşviqi Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmiş brendimizin əsas amallarındandır.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4820
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

**Buraxılışa məsul**:
Zahid İLHAMOĞLU